

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

18 sentyabr 2026-cı il, cümə

№ 169 (7236)

Qiyməti 60 qəpik


# Prezident və Birinci xanım Şamaxıda...



Bax səh. 3

# Türk dünyası bizim ailəmizdir və bizim başqa ailəmiz yoxdur

## İlham Əliyev: Ölkələrimizə və xalqlarımıza zidd hər cür ideoloji təxribatlara qarşı birgə mübarizə aparmaq lazımdır



Bax səh. 2

# Dünyada İslam həmrəyliyi naminə...

Bax səh. 4

## Azərbaycan dünyada bir presedent yaratdı...

6 ildir ki, Cənubi Qafqazda yeni bir reallıq - sülh və ədalət reallığı hökm sürür. Bu yeni reallığın əsas müəllifi isə məhz Azərbaycandır. Vətən müharibəsindən sonra yaranmış geosiyasi vəziyyəti düzgün qiymətləndirən rəsmi Bakı hərbi qələbəni siyasi və diplomatik üstünlüyə çevirməyi bacardı.

Qarabağ müharibəsi mühüm bir prosesin nəticəsi idi - zəfər yürüşü, qalibiyyət məhz Vətən sevgisinin, Vətənə bağlılığın simvolu kimi yadda qaldı. Cəmisi 44 gün ərzində yüzlərlə kənd, qəsəbə, şəhər, rayon öz azadlığına qovuşdu. Bu, Azərbaycanın qələbə təntənəsinin müjdəsi idi.

Ən mühüm məqam isə ondan ibarətdir ki, Azərbaycan əldə etdiyi qələbədən revanşizm və ya təzyiq vasitəsi kimi istifadə etmədi. Əksinə, regionda davamlı sülhün, qarşılıqlı etimadın və iqtisadi inteqrasiyanın formalaşdırılmasını dövlət siyasətinin əsas prioriteti elan etdi.

Bəli, Azərbaycan dövləti 2020-ci ildə Vətən müharibəsində qazandığı tarixi Qələbə ilə təkcə ərazi bütövlüyünü bərpa etmədi, eyni zamanda onilliklər boyu pozulmuş ədaləti yenidən bərqərar etdi. Otuz ildən artıq müddətdə doğma yurd-yuvasından didərgin düşmüş minlərlə insanın öz isti ocağına...

Bax səh. 3



## Avropa Parlamenti rüşvətxorlar yuvasıdır

Bax səh. 4

## QHPŞ və Pan-Afrika Parlamenti arasında Anlaşma Memorandumu...

Bax səh. 5

## İqtisadi inkişafın maliyyə təminatı

Bax səh. 5

## Bakı türk dünyasının mərkəzinə çevrilir

Hazırda türk dövlətlərinin və xalqlarının birliyi üçün mühüm addımlar atılır. Türk dövlətləri arasında siyasi, iqtisadi, mədəni, o cümlədən hərbi sahələrdə əməkdaşlığın gücləndirilməsi istiqamətində qəbul olunan qərarlar türk birliyinin qlobal gücə çevrilməsi yolunda atılan addımlardır. Türk Dövlətləri Təşkilatının (TDT) yaradılması isə türk dünyasının birliyinin gücləndirilməsi istiqamətində tarixi mərhələ oldu. Artıq hər il TDT-nin zirvə toplantıları çərçivəsində, eləcə də ikitərəfli münasibətlər kontekstində türk dövlətlərinin münasibətlərinin gücləndirilməsi üçün sistemli tədbirlər həyata keçirilir.

Son illər TDT-nin sammitlərində qəbul olunan qərarlar artıq türk dünyasını dünyaya qlobal güc kimi təqdim edir. Nəzərə alaq ki, TDT müstəvisində təkcə Zirvə görüşləri keçirilmir, türk dövlətlərinin müvafiq dövlət qurumlarının, strukturların təşkilatlanmış platformaları da yaradılıb və onların da vaxtaşırı toplantıları keçirilir. Təqdirəlayiq haldır ki, bu prosesdə Azərbaycan çox fəal iştirak edir. Sentyabrın 14-də Bakıda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin müsəlman dini idarə rəhbərlərinin VII görüşünün keçirilməsi də bunun göstəricisidir...

Bax səh. 5



## ABŞ Nümayəndələr Palatası Rusiyaya qarşı sanksiyalar haqqında qanun layihəsini qəbul edib

Bax səh. 7

## 11 sentyabrın kölgəsi



Bax səh. 7

# Türk dünyası bizim ailəmizdir və bizim başqa ailəmiz yoxdur







## İlham Əliyev: Ölkələrimizə və xalqlarımıza zidd hər cür ideoloji təxribatlara qarşı birgə mübarizə aparmaq lazımdır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyevi, Türkiyə Respublikasının Milli Təhlükəsizlik Şurasının baş katibi Okay Memişi, Özbəkistan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurasının katibi Viktor Mahmudovu, Qırğız Respublikası Təhlükəsizlik Şurasının katibi Adilet Orozbekovu, Qazaxıstan Respublikasının Təhlükəsizlik Şurası sədrinin müavini Aida Balayevanı, Şimali Kipr Türk Respublikası Baş nazirinin müşaviri Mehmet Ağanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı tədbirdə çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

- Salam. Bu gün Bakıda Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində növbəti tədbir keçirilir. Cəmi bir neçə gün əvvəl ölkələrimizi təmsil edən dini liderləri qəbul etmişdim. Bu gün isə təşkilatın təhlükəsizlik şuralarının katibləri şuranın 5-ci iclasını keçirmək üçün Bakıda toplaşıblar. Bütün bunlar təşkilatımız çərçivəsində fəal qarşılıqlı əlaqənin göstəricisidir. Həmçinin onu göstərir ki, Türk Dövlətləri Təşkilatı çox böyük beynəlxalq nüfuza malik olan bir təşkilatdır. Çünki müxtəlif formatlarda müzakirə olunan məsələlər beynəlxalq gündəliyi, beynəlxalq təhlükəsizliyi, multikulturalizm, ticarət, nəqliyyat, ümumilikdə humanitar əməkdaşlıqla bağlı məsələləri əhatə edir. Ona görə də əminliklə demək olar ki, təxminən iyirmiillik fəaliyyətindən, təşkilatın yaradıldığı 2009-cu ildə Naxçıvanda keçirilmiş tarixi Zirvə görüşündən sonra Türk Dövlətləri Təşkilatı mühüm məsələlərin həlli və üzv ölkələr arasında qarşılıqlı əlaqələrin inkişafı, həmçinin təşkilatın beynəlxalq arenadakı mövqeyinin müəyyənləşdirilməsi və möhkəmləndirilməsi üçün öz potensialından maksimum istifadə edir. Biz hamımız bunda maraqlıyıq. Təşkilata üzv ölkələrin rəhbərlərinin ümumi mövqeyi məhz ondan ibarətdir ki, beynəlxalq arenada TDT-nin rolunu və yerini gücləndirək. Bunun üçün bütün imkanlar var. Ölkələrimizin potensialı kifayət qədər böyükdür və güclənməkdə davam edir. Biz çox geniş coğrafi məkanda yerləşirik. Ərazimizdən bu gün təkcə ölkələrimiz üçün deyil, daha geniş coğrafiya üçün də mühüm rol oynayan ən vacib enerji və nəqliyyat yolları, dəhlizlər keçir. TDT regionunun qərbində və şərqində də təşkilatımızın və onun beynəlxalq məsələlərdə, o cümlədən bağlantılar, nəqliyyat təhlükəsizliyi, enerji təhlükəsizliyi və ümumilikdə təhlükəsizliklə bağlı məsələlərdə müsbət rolunun güclənməsini böyük maraqla izləyirlər. Ona görə də əminəm ki, bu gün keçiriləcək şura çərçivəsində, o cümlədən bu məsələlər də müzakirə olunacaq. Çünki bu gün enerji təhlükəsizliyi və nəqliyyat bağlantıları olmadan, ümumiyyətlə təhlükəsizlikdən danışmaq mümkün deyil.

Ölkələrimiz böyük təbii ehtiyatlara malikdir və bu da böyük üstünlükdür. Bu təbii ehtiyatlar dövlətlərimizin möhkəmlənməsinə, xalqlarımızın rifahının yüksəlməsinə xidmət edir, həmçinin bütün dünya üçün mühüm rol oynayır. Xüsusilə sərhədlərimizin perimetri boyunca mövcud olan bugünkü şəraitdə enerji təhlükəsizliyi ilə bağlı məsələlər mühüm əhəmiyyət kəsb edir.

Azərbaycana gəldikdə isə biz həm dünya iqtisadiyyatını enerji resursları ilə təchiz edən ölkəyik, həm də Mərkəzi Asiya ölkələrindən Xəzər vasitəsilə enerji resurslarının daha sonra beynəlxalq bazarlara tranzitini həyata keçiririk. Beləliklə, Avropa ilə Asiyanın qovşağında yerləşən və həm TDT-yə üzv Mərkəzi Asiya ölkələri, həm də Türkiyə ilə fəal qarşılıqlı əlaqədə olan Azərbaycanın coğrafi mövqeyi, əlbəttə ki, bütün ölkələrimiz üçün maksimum fayda ilə nəqliyyat və enerji təhlükəsizliyi layihələrinin həyata keçirilməsində oynadığımız rolu şərtləndirir.

Həmçinin deməliyəm ki, Azərbaycan TDT-yə üzv ölkələrlə ikitərəfli formatda fəal əməkdaşlıq edir. Mənim təşkilata üzv ölkələrə çoxsaylı səfərlərim və TDT-yə üzv dövlətlərin başçılarının Azərbaycana səfərləri bunun parlaq göstəricisidir. Eyni zamanda, Azərbaycan Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistanla müttəfiqlik haqqında müqavilələr və bəyannamələr imzalayıb. Yəni bu, ikitərəfli qarşılıqlı əlaqələrin ən yüksək səviyyəsidir və bu müqavilələr uğurla həyata keçirilir.

Qazaxıstan, Özbəkistan və Qırğızıstanla birgə investisiya fondları yaratmışıq, qarşılıqlı investisiyaların cəlb edilməsi və səfərbər olunması prosesi fəal şəkildə davam edir. Yəni ölkəmizin ikitərəfli gündəliyi ilk növbədə Türk dünyası ölkələrinə yönəlib. Bu, açıq çıxışlarımda dəfələrlə ifadə etdiyim kimi, bizim əsas xarici siyasət prioritetimizdir. O cümlədən demişəm ki, Türk dünyası bizim ailəmizdir və bizim başqa ailəmiz yoxdur.

Təşkilatımızın daha bir üstünlüyü ondan ibarətdir ki, o, ümumi etnik köklərə malik ölkələri birləşdirir. Dünyada belə təşkilatlar o qədər də çox deyil. Beynəlxalq təşkilatların siyahısına nəzər salsaq, nadir hallarda belə mənzərəyə rast gəlmək olar. Bu isə həmrəyliyin mühüm amilidir. Çünki iqtisadi və siyasi maraqlardan əlavə, ölkələrimizin ərazisində yaşayan insanlar, xalqlar arasında münasibətlər də qarşılıqlı əlaqələrimizin möhkəmləndirilməsində mühüm rol oynayır. Buna görə də belə mənəvi birlik, mədəniyyətlərin və dillərin oxşarlığı, ümumi etnik köklər - bütün bunlar təşkilatımızı möhkəmləndirir və ona xüsusi əhəmiyyət verir.

TDT-nin uğurlu inkişafının digər mühüm amili isə ondan ibarətdir ki, bu gün, necə deyərlər, xaotik dünyada ölkələrimizin ərazilərində sabitlik, sülh və təhlükəsizlik hökm sürür. Bugünkü siyasi və xarici siyasi reallıqlarda bu, inkişafın mühüm amilidir. Çünki məlumdur ki, sabitlik və təhlükəsizlik olmadan heç bir ölkənin inkişafı mümkün deyil. Bu və ya digər ölkədə sabit vəziyyət, siyasi və iqtisadi sabitlik yoxdursa, heç bir ölkəyə nə investisiyalar, nə texnologiyalar, nə də innovasiyalar gələcək. Yəni bu da bu gün ölkələrimizi yerləşdiyimiz regionlardakı digər ölkələrdən fərqləndirən mühüm amildir.

Ölkələrimiz, həmçinin inamlı iqtisadi artım nümayiş etdirir. Durğunluq, iqtisadi geriləmə, digər iqtisadi və sosial çətinliklər bu gün, ümumiyyətlə müasir dünyanın reallıqlarıdır, xüsusilə də planetin müxtəlif yerlərində əks proseslərin getdiyini gördüyümüz bir vaxtda. Lakin TDT məkanında müsbət dinamikanı - həm sənaye istehsalının artımını, həm iqtisadi göstəriciləri, həm də sabit maliyyə sistemlərini görürük. Bütün bunlar ölkələrimizin və ölkələrimizdə dövlət səviyyəsində həyata keçirilən siyasətin böyük nailiyyətidir.

Əlbəttə, ölkələrimizin və xalqlarımızın daha bir oxşarlığını, yəni bizim öz mənəvi və milli prinsiplərimizə sadiq olmağımızı da qeyd etmək çox vacibdir. Əlbəttə, ölkələrimizdə milli prinsiplər, milli özünüdərk prinsipləri bəzən bizə kənardan təlqin etməyə çalışdıqları digər prinsiplərdən üstündür. Gənc nəslin ölkələrimizdə vətənpərvərlik, milli prinsiplərə və mənəvi dəyərlərimizə sadiqlik ruhunda tərbiyə olunması da çox vacibdir. Bu kontekstdə, əlbəttə, bu, TDT-nin fəal çalışmalı olduğu geniş sahədir, o cümlədən gənclər siyasəti ilə bağlı tədbirlər çərçivəsində.

Əlbəttə ki, ölkələrimizin əhalisinin gənc və demoqrafik vəziyyətin müsbət olması da üstünlükdür. Çünki bir çox ölkələrdə əhalinin sürətlə azaldığını görürük. Bəzi ölkələr artıq həyəcan təbili çalırlar ki, belə davam edərsə, əhali sadəcə olaraq, kritik səviyyəyə qədər azalacaq. Bizim ölkələrimizdə isə əks proses gedir, yəni əhalinin artması prosesi müşahidə olunur. Bəli, bu, müəyyən mərhələdə, əgər fəal iqtisadi siyasətlə, o cümlədən sosial infrastrukturun yaradılması və iş yerlərinin sayının artırılması ilə dəstəklənməzsə, müəyyən iqtisadi, hətta sosial problemlərə gətirib çıxara bilər. Lakin ölkələrimizdə həm iqtisadi artımın, həm də sosial rifahla bağlı məsələlərin uğurla həll edildiyini görürük.

Bildiyiniz kimi, mən TDT-yə üzv ölkələrə tez-tez səfər edirəm. Elə keçən ay Özbəkistana, Qırğızıstana iki səfərim oldu, Türkiyədə də, Türkmənistanda da tez-tez oluram. Buna görə də TDT məkanında müşahidə etdiyimiz müsbət dəyişikliklərin özüm şahidiyəm. Bütün bunlar qardaşlarımız üçün sevinc və qürur hissi doğurur.

Əlbəttə, sizin müzakirə edəcəyiniz əsas mövzu daim diqqət tələb edən təhlükəsizlik sistemi ilə bağlı məsələlər olacaq. Yenə də ölkələrimizin üstünlüyü ondan ibarətdir ki, geniş coğrafiyada ictimai asayişlə, müxtəlif terror təhdidləri ilə bağlı vəziyyət nəzarət altındadır. Lakin bu o demək deyil ki, biz arxayınlaşmalıyıq. Ətrafımızda müharibələr gedir və bu müharibələrin nə sonu, nə də qurtaracağı görünür. Müharibələrin coğrafiyası genişlənir. Döyüşən tərəflər arasında qarşılıqlı düşmənçilik açıq xarakter alır. Bütün bunlar ölkələrimizin perimetri boyunca mövcud olan münaqişələrin coğrafiyasının genişlənməsinə səbəb ola bilər və prinsipcə, səbəb də olur. Hazırkı vəziyyətdə də, Azərbaycan haqqında danışsaq, həm şimalda, həm də cənubda qonşularımız müharibə aparan ölkələrdir. Bu kontekstdə də, əlbəttə ki, regional təhlükəsizliklə bağlı məsələlər çox mühüm əhəmiyyət kəsb edir.

Artıq dediyim kimi, bunlar olmadan heç bir inkişafdan söhbət gedə bilməz. Bu kontekstdə dövlət təhlükəsizliyinə cavabdeh qurumların fəaliyyətinin əlaqələndirilməsi, məlumat mübadiləsi, operativ məlumat mübadiləsi, birgə fəaliyyət və mövcud təhdidlərə qarşı mübarizədə, ən başlıcası isə mümkün təhdidlərin qarşısının alınmasında və profilaktikasında koordinasiyanın gücləndirilməsi, hesab edirəm ki, hamımız üçün həyati əhəmiyyət daşıyır. Əminəm ki, Bakıda keçiriləcək şura çərçivəsində bütün bu məsələlər müzakirə olunacaq. Lakin bunlar həm də daim ölkələrimizin rəhbərliyinin nəzarətindədir.

Bildiyiniz kimi, Türk Dövlətləri Təşkilatının Zirvə görüşləri müntəzəm xarakter daşıyır. Azərbaycanın təşəbbüsü ilə yaxın vaxtlardan etibarən qeyri-rəsmi Zirvə görüşləri də keçirməyə başlamışıq. Çünki hesab etdik ki, dövlət başçılarının ildə bir dəfə məhz bu formatda görüşməsi kifayət deyil. Lakin dediyim kimi, ölkələrimizin hər birinin üzv ölkələrlə ikitərəfli gündəliyi kifayət qədər fəaldır. Ancaq biz birlikdə ildə bir dəfə toplaşırıq və hesab etdik ki, bu azdır. Həmkarlarımız da bunu dəstəklədilər və ilk qeyri-rəsmi Zirvə görüşü Şuşada, daha sonra isə digər ölkələrdə də keçirildi.

Beləliklə, rəhbərlik səviyyəsində ümumi maraqlarımızın, ümumi planlarımızın olduğu barədə ümumi anlayış mövcuddur və onların həyata keçirilməsi, yenə də daha çox ölkələrimizin mövcud və mümkün təhdidlərdən nə dərəcədə qorunmasından asılı olacaq.

Bugünkü təhdidlərin təkcə fiziki deyil, həm də ideoloji xarakter daşımasına gəldikdə isə hesab edirəm ki, bu barədə danışmağa ehtiyac yoxdur, hamımız bunu çox yaxşı bilirik. Ölkələrimizin ardıcıl inkişafını və konstitusiya quruluşunun qorunmasını təmin etmək üçün ölkələrimizə və xalqlarımıza zidd hər cür ideoloji təxribatlara qarşı birgə mübarizə aparmaq lazımdır. O cümlədən adətən ölkələrimizin hüdudlarından çox uzaqda yerləşən, lakin nədənsə məlum mərkəzlərdən maliyyələşən müxtəlif media strukturları vasitəsilə həyata keçirilən təxribatlara qarşı. Bu maliyyələşdirmə ölkələrimizin dövlət quruluşunun sarsıdılmasına, ictimai həmrəyliyin pozulmasına, yad narrativlərin və dəyərlərin aşılanmasına yönəlib. Biz buna qarşı Azərbaycanda çox fəal mübarizə aparırıq və deməliyəm ki, böyük uğurlar əldə etmişik.

Azərbaycanda xain, antimilli, satqın strukturlar, mahiyyət etibarilə son dərəcə marjinal xarakter daşıyır. Ən başlıcası isə onlar xalqımızın mütləq əksəriyyəti tərəfindən ittiham olunur. Çünki Azərbaycanda mənəvi dəyərlərə, ənənələrə, həyat tərzimizə sadiqlik, yenə də əsas istiqamətdir, başlıca tendensiyadır. Buna zərər vurmağa çalışan hər şey cəmiyyətimiz tərəfindən son dərəcə mənfi qarşılanır. Lakin bu, bütün işləri başa çatdırdığımız anlamına gəlmir, çünki ölkələrimizdə sabitliyi pozmaq cəhdləri davam etdiriləcək.

Əminəm ki, hər biriniz öz ölkənizdəki vəziyyəti çox yaxşı bilirsiniz. Təbii ki, ölkələrimizdə vəziyyət eyni deyil. Lakin müəyyən beynəlxalq mərkəzlərdən ölkələrimizin dövlət maraqlarının sarsıdılmasına yönəlmiş fəaliyyət prinsipləri dəyişməz olaraq qalır. Həm metodlar, həm də məqsədlərinə nail olmaq cəhdləri kifayət qədər şablon xarakter daşıyır, deyərdim ki, primitivdir. Bir sözlə, bədxahlarımızda, deyərdim ki, yaradıcılıq çatışmır. Əlbəttə ki, onlar əsas səylərini hələ formalaşmamış, formalaşma mərhələsində olan və manipulyasiya etməyin daha asan olduğu gənc nəslə yönəldirlər. Məhz buna görə deyirəm, bilirəm ki, ölkələrimizin hər birində fəal gənclər siyasəti həyata keçirilir. Lakin hesab edirəm ki, TDT çərçivəsində məhz gənclər təşkilatlarımızın qarşılıqlı fəaliyyətinə daha çox diqqət yetirməliyik, müntəzəm tədbirlər, forumlar, konfranslar keçirməliyik ki, gənc vətəndaşlarımız bir-biri ilə ünsiyyət qursunlar. Onlar qohum xalqlara bizim nəslin münasibət göstərdiyi kimi münasibət göstərsinlər. Bunu, əlbəttə, öz nümunəmiz, uğurlu fəaliyyətimiz, təşkilatımızın möhkəmləndirilməsi ilə yanaşı, düzgün ideoloji iş vasitəsilə onlara ötürməliyik.

Beləliklə, ölkələrinizin təhlükəsizlik şuralarının rəhbərləri kimi qarşınızda duran vəzifələr, təbii ki, kifayət qədər böyükdür. Düşünürəm ki, 5-ci iclas çərçivəsində həm məlumat, həm də təcrübə mübadiləsi aparılacaq. Hesab edirəm ki, zəif yerlərimizin harada olduğunu, bizə zərər vurmağa çalışan yad ünsürlərin nüfuz edə biləcəyi, necə deyərlər, hansı pəncərələrin mövcud olduğunu müəyyənləşdirmək faydalı olacaq.

Sonda daha bir məqamı qeyd edəcəyəm. Qədim tariximizi nəzərə almasaq, Türk Dövlətləri Təşkilatına üzv ölkələrin böyük hissəsinin dövlətçiliyinin yaşı cəmi 35 il olan ölkələrdir. Əlbəttə, ölkələrimizin ərazisində qədim dövlətlər mövcud olub, xalqlarımız zəngin dövlətçilik tarixinə malikdirlər və biz haqlı olaraq bununla fəxr edirik. Lakin son dövrə gəldikdə, 1991-ci il Azərbaycanın dövlətçiliyini bərpa etdiyi ildir. Təbii ki, bu da nəzərə almalı olduğumuz amildir. Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Özbəkistanın yenidən müstəqillik əldə etməsindən o qədər də uzun müddət keçməyib, lakin bu dövr həm mürəkkəb, həm də şərəfli olub. Hər bir ölkənin öz çətinlikləri olub, Azərbaycanın da öz çətinlikləri olub, lakin hamımız ən mürəkkəb sınaqlardan şərəflə çıxmışıq. Bu gün isə mahiyyət etibarilə problemlərin böyük hissəsini, - problemlər deyərkən qarşımızda duran qlobal problemləri nəzərdə tuturam, - arxada qoymuşuq. Qarşıda isə birgə iş, qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsi, ölkələrimiz və xalqlarımız arasında daha sıx əlaqələrin qurulması, Türk Dövlətləri Təşkilatının beynəlxalq arenadakı rolunun gücləndirilməsi dayanır. Biz TDT-ni birgə səylərimizlə aparıcı beynəlxalq institutlardan, aparıcı beynəlxalq təşkilatlardan birinə çevirməyə çalışmalıyıq. Əlbəttə, qeyd etdiyim tezislər belə bunun üçün bütün imkanların mövcud olduğunu göstərir.

Beləliklə, sizə uğurlu iş arzulayıram, sizi Azərbaycanda salamlayıram, xoş gəlmisiniz!

## Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Təhlükəsizlik Şuraları katiblərinin Beşinci Toplantısının iştirakçılarına

Hörmətli tədbir iştirakçıları!

Sizi Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Təhlükəsizlik Şuraları katiblərinin Beşinci Toplantısında Bakı şəhərində səmimi-qəlbdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz! Bu mötəbər tədbirin ilk dəfə Azərbaycanda təşkil edilməsi məmnunluq doğurur.

Qardaş xalqlarımızı ortaq etnik köklər, dil, mədəniyyət və ənənələr möhkəm ailə kimi birləşdirir. Təbii müttəfiqliyimizi rəsmiləşdirən Türk Dövlətləri Təşkilatı geniş coğrafi məkanda yerləşən, nəhəng siyasi və iqtisadi potensialı əhatə edən dost və qardaş ölkələrimizin birliyinin və səmərəli qarşılıqlı fəaliyyətinin bariz nümunəsidir.

Bu gün Türk dünyası özünün yüksəliş mərhələsinə qədəm qoymuşdur. Ölkələrimizdə hökm sürən sülh, əmin-amanlıq və sabitlik şəraiti, uğurla davam etdirilən inkişaf prosesləri xalqlarımızın və dövlətlərimizin böyük nailiyyətidir.

Altı il əvvəl Azərbaycanın qazandığı, ümumi fəxr və qürur mənbəyimiz olan Qarabağ Zəfəri regionda yeni geosiyasi reallığın əsasını qoydu. Bu Zəfər, eyni zamanda, ölkələrimizi iqtisadi, logistik və strateji cəhətdən bir-birinə bağlayan tarixi bir qapının - Zəngəzur dəhlizinin reallaşmasına zəmin yaratdı. Fürsətdən istifadə edərək, işğaldan azad olunmuş ərazilərimizin yenidən qurulmasında və bərpasında göstərdikləri dəstəyə görə təmsil etdiyiniz ölkələrə təşəkkürümü bildirirəm. Bu təşəbbüslər Azərbaycan xalqı tərəfindən dərin rəğbət və minnətdarlıq hissi ilə qarşılanır.

Bizim sarsılmaz dostluğumuz və qardaşlığımız bu gün vahid ailəmiz olan Türk Dövlətləri Təşkilatının artan beynəlxalq nüfuzunu və potensialını, Təşkilatın dünyanın güclü geosiyasi mərkəzlərindən birinə çevrilməsini şərtləndirən əsas amillərdəndir.

Türk Dövlətləri Təşkilatına sədrliyi çərçivəsində Azərbaycan ölkələrimiz arasında birliyin və həmrəyliyin daha da möhkəmlənməsinə, qarşılıqlı fəaliyyətimizin geniş potensialının reallaşmasına və bütövlükdə regionumuzun davamlı inkişafına, sülhə və təhlükəsizliyə töhfələr vermək üçün səylərini əsirgəmir. Keçən il Qəbələ Zirvə Görüşündə qəbul edilmiş Bəyannamə üzv ölkələrin siyasi, iqtisadi, enerji, humanitar, hərbi və təhlükəsizlik sahələrində sıx əməkdaşlığını və inteqrasiyasını ehtiva edən mühüm yol xəritəsidir.

Avropa ilə Asiyanı birləşdirən, Türk dövlətlərinin rifahına töhfə verən mühüm nəqliyyat-logistika layihəsi olan Orta Dəhlizin, o cümlədən Zəngəzur dəhlizinin və digər nəqliyyat bağlantılarının inkişaf etdirilməsi istiqamətində sədrliyimiz çərçivəsində səy göstəririk.

Türk Dövlətləri Təşkilatına sədrliyimiz dövrünə təsadüf edən əlamətdar hadisələrdən biri də Azərbaycanda Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunmuş Türk Dünyası Həftəsinin keçirilməsidir. Fürsətdən istifadə edərək, Təşkilata üzv ölkələrin dəyərli liderlərinə ehtiramımı ifadə edir, Qurultaya ünvanladıqları müraciətlərə və ümumiyyətlə Azərbaycan Respublikasının Türk Dövlətləri Təşkilatındakı sədrliyinin işinə göstərdikləri daimi dəstəyə görə təşəkkürümü bildirirəm.

Hörmətli tədbir iştirakçıları!

Müasir dünyada ənənəvi təhdidlərlə yanaşı, bəşəriyyəti narahat edən yeni çağırışlar, o cümlədən kibertəhdidlər meydana gəlir, yeni qeyri-sabitlik ocaqları yaranır, beynəlxalq hüququn böhranı müşahidə olunur. Bunların hamısı regional və qlobal problemlərin həlli istiqamətində ortaq gündəliyimizin müəyyənləşdirilməsini, mühüm məsələlərə dair vahid mövqeyimizin formalaşdırılmasını və bütün istiqamətlər üzrə fəaliyyətimizin əlaqələndirilməsini labüd edir. İkitərəfli əsasda həyata keçirdiyimiz hərbi təlimlər müdafiə sahəsində əməkdaşlığımıza töhfə verməklə, dövlətlərarası əlaqələrimizin strateji mahiyyətini bir daha bariz şəkildə təsdiq edir.

Türk Dövlətləri Təşkilatına üzv ölkələrin təhlükəsizlik şuraları arasında əməkdaşlıq Türk dünyasının inteqrasiya prosesinin sadəcə siyasi, iqtisadi və mədəni sahələrlə məhdudlaşmadığının, həm də uzunmüddətli strateji xarakter daşıdığının göstəricisidir.

Təhlükəsizlik Şuraları katiblərinin mütəmadi əsasda toplaşaraq aktual təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparması ortaq qlobal və regional təhdid və risklərin müəyyənləşdirilməsi və onların neytrallaşdırılması yollarının araşdırılması baxımından müstəsna əhəmiyyət kəsb edir, Türk Dövlətləri Təşkilatı məkanında təhlükəsizlik sahəsində dialoqu tamamilə yeni səviyyəyə qaldıraraq ortaq təhlükəsizlik arxitekturasının formalaşdırılmasına xidmət edir. Belə ki, beynəlxalq terrorçuluq, transmilli mütəşəkkil cinayətkarlıq, narkotik vasitələrin qanunsuz dövriyyəsi, dini ekstremizm, hibrid təhdidlərlə mübarizə, kritik infrastrukturun mühafizəsi kimi məsələlər istənilən dövlətin təkbaşına həll edə bilməyəcəyi məsələlərdir. Bu səbəbdən, mühüm koordinasiya mexanizmi olaraq, təhlükəsizlik şuralarının üzərinə böyük məsuliyyət düşür.

Əminəm ki, Toplantı zamanı gündəlikdə duran mühüm məsələlər ətrafında aparılacaq müzakirələr, irəli sürüləcək təşəbbüs və təkliflər ölkələrimizin əmin-amanlığına, təhlükəsiz gələcəyinə, Türk dünyasının qlobal təhdidlər qarşısında daha dayanıqlı və sarsılmaz bir gücə çevrilməsinə əhəmiyyətli töhfə verəcəkdir.

Toplantının işinə uğurlar arzulayıram.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 17 sentyabr 2026-cı il**

# Prezident və Birinci xanım Şamaxıda...



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 17-də Şamaxı rayonuna səfər ediblər.
AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Şamaxı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət ediblər.

## "Nəsimi Bağları" kompleksi ilə tanışlıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 17-də Şamaxıda "Nəsimi Bağları" kompleksi ilə tanış olublar.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma kompleksdə yaradılmış şərait barədə məlumat verdi.

"Nəsimi Bağları" kompleksi Şamaxı rayonunda yeni istifadəyə verilən, sakinlərin və qonaqların asudə vaxtlarını səmərəli keçirmələri üçün yaradılmış növbəti bir məkandır.

Kompleks Şamaxı rayonunda turizmin inkişafına töhfə vermək, bölgənin turizm potensialını artırmaq, ərazinin təbii xüsusiyyətlərini qorumaq, həmçinin ailəvi istirahətin və asudə vaxtın səmərəli təşkili üçün rahat mühit yaratmaq prinsipləri əsasında qurulub.

Çoxfunksiyalı turizm, mədəniyyət və rekreasiya layihəsi kimi fəaliyyət göstərən "Nəsimi Bağları" kompleksinin ərazisində müxtəlif istirahət obyektləri, ailəvi əyləncə infrastrukturu, fərqli mövzularda incəsənət nümunələri, iaşə obyektləri yerləşir.

Ərazidəki üçmərtəbəli əsas bina kompleksin informasiya və turizm mərkəzi funksiyasını yerinə yetirir. Burada ziyarətçilərə "Nəsimi Bağları"ndakı məkanlar, turist marşrutları və xidmətlər barədə məlumat verilir. Binanın daxilində ziyarətçilərin rahat və səmərəli vaxt keçirmələri üçün "Capybara Cafe" və suvenir mağazası var.

Dördmərtəbəli digər korpusda Şamaxının qədim və müasir tarixini, mədəni irsini əks etdirən zəngin ekspozisiyaya malik muzey yaradılıb. Bu binada, həmçinin əsas restoran zalı, tədbirlərin keçirilməsi üçün zal və geniş terras var.



Kompleks ərazisindəki "Magic Village" hobbit evləri üslubunda inşa edilən tematik evlər, əsasən uşaqların maraqla qarşılayacağı "Honey Nest" kafesi, geniş uşaq oyun meydançası və hündürlüyü 9 metr olan baxış qülləsindən ibarətdir. Buradakı evlər tam yaşayış şəraiti ilə təmin edilib və turistlərin ilboyu qalması üçün nəzərdə tutulub.

Qeyd edək ki, burada Azərbaycanda ilk və yeganə ixtisaslaşmış kapibara ferması -"Capybara Land" var. Fermada heyvanları yaxından görmək, toxunmaq və yemləmək mümkündür.

Kompleks ərazisində Azərbaycan, eləcə də xarici rəssam və heykəltəraşların yaratdığı 100-dən çox əsər və instalyasiya nümayiş etdirilir. Burada Azərbaycanın görkəmli şairi İmadəddin Nəsiminin müasir üslubda hazırlanmış abidəsi (instalyasiyası) də var. Hündürlüyü 21 metr olan abidə (instalyasiya) nəhəngliyi ilə diqqət çəkir və Şamaxının bir çox yerindən görünür.

"Nəsimi Bağları" kompleksində 20 kottec, qeydiyyat binası və çimərlik hovuzundan ibarət şəhərcik də salınıb.

Kompleksdə, eyni zamanda, məscid də fəaliyyət göstərir.

Ərazidə şam ağacları, üzüm bağları, müxtəlif dekorativ bitkilər, həmçinin dünyada ən sürətlə böyüyən ağac növlərindən hesab edilən pavlovniya da daxil olmaqla 150 mindən çox ağac və bitki əkilib.

## "Meysari Grand Hotel & SPA" kompleksinin açılışında...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 17-də Şamaxıda "Meysari Grand Hotel & SPA" kompleksinin açılışında iştirak ediblər.

"Pasha Hospitality" şirkətinin baş icraçı direktoru Mehmet Balçik dövlətimizin başçısına və birinci xanıma Şamaxı rayonunun Meysəri kəndində yeni inşa olunan "Meysari Grand Hotel & SPA" barədə məlumat verərək dedi ki, kompleks çoxfunksiyalı turizm və istirahət məkanıdır.

Bildirildi ki, dəniz səviyyəsindən 1050 metr yüksəklikdə yerləşən kompleks özündə hotel və kotteclər, restoranlar, konfrans mərkəzi, SPA və sağlamlıq mərkəzi, idman və istirahət zonaları, uşaq əyləncə mərkəzi, avtomobil dayanacağı və helikopter meydançasını birləşdirir.

Kompleksin əsas hotel binasında müxtəlif kateqoriyalarda 88 otaq, kottec hissəsində isə 116 otaq olmaqla, ümumilikdə 204 otaq mövcuddur. Bundan əlavə, kompleksin ərazisində 3 villa da yerləşir.

Burada fəaliyyət göstərən sağlamlıq mərkəzində qonaqların istirahəti, sağlamlıqlarının bərpası üçün geniş imkanlar yaradılıb.

Kompleksdə 3 hovuz, idman və pilates zalları, tennis kortu, futbol meydançası, padel kortu və uşaq əyləncə mərkəzi qurulub.

Helikopter meydançası isə zəruri hallarda qonaqların hava nəqliyyatından istifadə etmələri üçün nəzərdə tutulub. Kompleksdə restoranlar da fəaliyyət göstərəcək.

Ərazidə Nəsimi Konfrans Mərkəzi də yerləşir. Ümumilikdə 420 nəfərlik mərkəzdə konfransların, toplantıların, təqdimatların, işgüzar görüşlərin və digər tədbirlərin keçirilməsi nəzərdə tutulub. Bununla yanaşı, kompleksin ərazisində daha kiçikmiqyaslı tədbirlər və görüşlərin təşkili məqsədilə zal da var.



Kompleksdə qapalı və açıq avtomobil dayanacağı zonaları yaradılıb.

Burada ümumilikdə 320 yeni iş yeri açılıb.

Qeyd edək ki, qədim tarixi, zəngin mədəni irsi, gözəl təbiəti və özünəməxsus mülayim iqlimi ilə seçilən Şamaxı Azərbaycanın cəlbedici turizm məkanlarından biridir. Dağ mənzərələri, üzüm bağları, qədim abidələri və qonaqpərvərlik ənənələri bu bölgəni istirahət və səyahət üçün həm yay, həm də qış fəslində əlverişli edir. Şamaxıda yeni hotelin açılması isə turizm infrastrukturunun inkişafına töhfə olaraq yerli və xarici qonaqların rahat istirahəti, rayonun turizm potensialından daha səmərəli istifadəsi və yerli iqtisadiyyatın inkişafı üçün əlavə imkanlar yaradacaq.

## Pir Ömər Sultan ziyarətgahında aparılan konservasiya işləri ilə tanışlıq



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 17-də Şamaxıda Pir Ömər Sultan ziyarətgahında aparılan konservasiya işləri ilə tanış olublar.

Tarixi Pir Ömər Sultan ziyarətgahı Şamaxı rayonunun Avaxıl kəndində yerləşir. Burada aparılan ilkin arxeoloji tədqiqatlar nəticəsində XIV əsrin ortalarına aid türbə qalıqları və onun məhz xəlvətilik təliminin banisi Pir Ömər Avaxılıya aid olduğunu təsdiqləyən artefaktlar tapılıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2020-ci ildə Şamaxıya səfərləri çərçivəsində ziyarətgahda olub və abidədə konservasiya işlərinin aparılmasına dair tapşırıqlar veriblər.

Ziyarətgahın çay və qaya daşlarından tikilmiş qalıqları ötən müddət ərzində Heydər Əliyev Fondunun dəstəyi ilə konservasiya edilib. Ziyarətgahın içərisində Pir Ömər Avaxılıya, kənarlarında isə başqa şəxslərə aid 8 qəbir aşkar edilərək səliqəyə salınıb. Ziyarətgahın və onun ətrafının konservasiya işlərindən sonra qorunması üçün eyni daş materialından divar hörülüb. Divarın üzərində 16 metr hündürlüyündə səkkizbucaqlı metal konstruksiyadan hazırlanmış çardaq qurulub. Ziyarətgah və onun ətrafında konservasiya olunan sahədə buraya gələnlər üçün gəzinti zolağı yaradılıb. Aparılan işlər zamanı təbiətə və ətrafdakı qəbirlərə ziyan dəyməməsinə xüsusi diqqət yetirilib.

Qeyd edək ki, bu ziyarətgahın bərpası dini-tarixi abidələrin qorunub saxlanılması istiqamətində dövlət tərəfindən həyata keçirilən kompleks tədbirlərin tərkib hissəsidir. Pir Ömər Sultan ziyarətgahının konservasiyasının Heydər Əliyev Fondunun dəstəyi ilə aparılması isə Fondun ölkəmizdə dövlət səviyyəsində icra edilən bu işlərə verdiyi böyük dəstəkdir.

## "Pirqulu Park" hotelinin açılışında...




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 17-də Şamaxıda "Pirqulu Park" hotelinin açılışında iştirak ediblər.

"Moderngroup" MMC-nin təmsilçisi Fariz Abbaszadə dövlətimizin başçısına və birinci xanıma hoteldə yaradılmış şərait barədə məlumat verdi.

Bildirildi ki, Pirqulu qəsəbəsində inşa edilən hotel Şamaxı Astrofizika Rəsədxanasının yaxınlığında yerləşir. Ərazisi 16 hektar olan kompleksə 2 hotel binası daxildir. Binalardan biri 188, digəri isə 172 yerlikdir. Burada müxtəlif kateqoriyadan 175 nömrə və 2 kottec var. Bu isə eyni vaxtda hoteldə 366 qonağın qalmasına imkan verir. Kompleksdə restoranlar, kafelər, görüş və təlimlər üçün 160 yerlik zal mövcuddur. Ərazidə 600 nəfərlik konqres binası, uşaq əyləncə mərkəzi, amfiteatr yaradılıb.

Qeyd edək ki, Azərbaycanda turizm sektorunun davamlı və hərtərəfli inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Vətənimizin zəngin təbii resursları, qədim tarixi-mədəni irsi və nadir iqlim müxtəlifliyi ilə yanaşı, turizm sənayesinin inkişafı ilə bağlı dövlət səviyyəsində görülən işlər Azərbaycanı dünyanın hər yerindən olan turistlər üçün cəlbedici ölkəyə çevirib.

# Azərbaycan dünyada bir presedent yaratdı...

### İlham Əliyev: Xocalı qurbanlarını unutmayacağıq, dağıdılmış məscidlərimizi, təhqir edilmiş mədəni ocaqlarımızı heç vaxt unutmayacağıq və bu yaddaş bizi daha da ayıq edəcək

### Cənubi Qafqazda yeni sülh mərhələsi başlayıb

6 ildir ki, Cənubi Qafqazda yeni bir reallıq - sülh və ədalət reallığı hökm sürür. Bu yeni reallığın əsas müəllifi isə məhz Azərbaycandır. Vətən müharibəsindən sonra yaranmış geosiyasi vəziyyəti düzgün qiymətləndirən rəsmi Bakı hərbi qələbəni siyasi və diplomatik üstünlüyə çevirməyi bacardı.

Qarabağ müharibəsi mühüm bir prosesin nəticəsi idi - zəfər yürüşü, qalibiyyət məhz Vətən sevgisinin, Vətənə bağlılığın simvolu kimi yadda qaldı. Cəmisi 44 gün ərzində yüzlərlə kənd, qəsəbə, şəhər, rayon öz azadlığına qovuşdu. Bu, Azərbaycanın qələbə təntənəsinin müjdəsi idi.

Ən mühüm məqam isə ondan ibarətdir ki, Azərbaycan əldə etdiyi qələbədən revanşizm və ya təzyiq vasitəsi kimi istifadə etmədi. Əksinə, regionda davamlı sülhün, qarşılıqlı etimadın və iqtisadi inteqrasiyanın formalaşdırılmasını dövlət siyasətinin əsas prioriteti elan etdi.

Bəli, Azərbaycan dövləti 2020-ci ildə Vətən müharibəsində qazandığı tarixi Qələbə ilə təkcə ərazi bütövlüyünü bərpa etmədi, eyni zamanda onilliklər boyu pozulmuş ədaləti yenidən bərqərar etdi. Otuz ildən artıq müddətdə doğma yurd-yuvasından didərgin düşmüş minlərlə insanın öz isti ocağına qayıdışı bu Qələbənin ən böyük mənəvi nəticəsi idi. Bu gün qalib ölkə olaraq bölgədəki siyasi proseslər məhz Azərbaycanın iradəsi əsasında inkişaf edir. Hər zaman dayanıqlı sülhün tərəfdarı kimi çıxış edən ölkəmiz bu gün qalib ölkə olmasına baxmayaraq, bölgədə əməkdaşlığın, normal münasibətlərin formalaşdırılmasını istəyir. Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 15-də Türk Dövlətləri Təşkilatının (TDT) müsəlman dini idarə rəhbərləri Şurasının üzvlərindən və müşahidəçilərindən, Yəhya Bakuvi Beynəlxalq Konfransının həmtəşkilatçılarından və Qafqaz Xalqları Ali Dini Şurasının üzvlərindən ibarət nümayəndə heyətini qəbul edərkən bildirib ki, Azərbaycan xalqı bu ədalətsizliyə son qoydu və dünyada bir presedent yaratdı. Çünki bu vaxta qədər işğal edilmiş torpaqlar əfsuslar olsun ki, azad edilmirdi. Hər halda XX əsrdə və XXI əsrdə belə hallara rast gəlinmirdi, ya da ki, çox nadir hallarda rast gəlinirdi: "Azərbaycan xalqı qan tökərək, döyüşərək bu torpaqları azad etdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların canı-qanı bahasına, qəhrəman övladlarımızın fədakarlığı hesabına biz öz ədalətimizi, hüququmuzu və milli ləyaqətimizi bərpa etdik. İşğalçıları torpaqlarımızdan qovduq, Azərbaycan Bayrağını Qarabağın və Şərqi Zəngəzurun hər bir guşəsində qaldırdıq, separatçılığa son qoyduq".

**"Azərbaycan xalqı öz ərazi bütövlüyünü, suverenliyini, beynəlxalq hüququ və ədaləti bərpa etmişdir"**

Azərbaycanın suverenliyinin bərpa edilməsi ilə yanaşı həm də illərlə regionda separatizm yayan cinayətkarlar ədalət mühakiməsi qarşısına çıxarıldılar. Xatırladaq ki, 24 saatlıq antiterror tədbirləri nəticəsində Azərbaycanın hüquq-mühafizə orqanları Qarabağda separatçı rejimin bir çox üzvlərini, eləcə də, rəhbərlərini həbs edərək Bakıya gətirdi. Azərbaycan dövləti bu şəxslərin addımlarına hüquqi qiymət verilməsini istəyirdi - qanun çərçivəsində, hüquq müstəvisində onlar etdikləri cinayətlərin məsuliyyətini daşımalı idilər. Çünki Azərbaycan hüquqi dövlətdir - bu gün Azərbaycanda baş verən tərəqqi proseslərinin, novatorluğun, islahatların lokomotivi qismində çıxış edən hüquqi dövlət anlayışı isə bütövlükdə sabit inkişafın əsas təməl prinsipidir. Bu mənada, bir sıra maddələrlə saxlanılan həmin şəxslərin məhkəmə prosesi də qanunvericiliyə uyğun aparıldı - Azərbaycan dövləti özünün ali hüquq anlayışına hörmətini bir daha nümayiş etdirdi, ən qatı cinayətkarların mühakimə edilmək və müdafiə olunmaq hüququnu tanıdı, nəticədə ədalətli qərar çıxarıldı. Bu amil həm də ölkəmizin hüquqi dövlət prinsiplərinin nə qədər dərin olduğunu göstərir. Azərbaycan bu kimi məsələlərdə heç bir zaman nə kompromisə, nə də güzəştə getmir - qanun Azərbaycan dövlətində yeganə istinad mənbəyidir. Biz hər zaman bəyan edirik ki, hüquqi yanaşmalar nəinki subyekt olaraq bizi xalqlara və ya dövlətlərə xitabən, ümumilikdə beynəlxalq qanunvericiliyə və prosedurlara uyğun aparılmalı, bu norma mütləq şəkildə gözlənilməlidir.



Prezident İlham Əliyev bildirib ki, separatçı liderlər, hərbi cinayətkarlar, uşaq qatilləri bu gün Azərbaycan həbsxanalarında öz cəzalarını çəkirlər: "Bu da ədalətin təntənəsidir. Yəni ədalət tam zəfər çalmışdır və Azərbaycan xalqı bir yumruq kimi birləşərək öz ərazi bütövlüyünü, suverenliyini, beynəlxalq hüququ və ədaləti bərpa etmişdir".

**"Böyük Qayıdış" Proqramı uğurla icra edilir...**

Artıq o gündən 6 il ötür. Bu illər ərzində həmin torpaqlarımızda yenidən həyat canlanır - kəndlər salınır, şəhərlər abadlaşdırılır, həmin ərazilərin əsl sahibləri evlərinə dönürlər. Bu qayıdış isə Qələbənin ən əsas təminatçısı, təsdiqidir. Azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri dövlətin strateji baxışının, planlı və məqsədyönlü siyasətinin bariz göstəricisidir. Yol infrastrukturu, enerji təminatı, sosial obyektlər, məktəblər, xəstəxanalar, yaşayış kompleksləri qısa müddətdə inşa olunur. "Ağıllı kənd" və "ağıllı şəhər" layihələrinin reallaşdırılması Qarabağın yalnız bərpa olunmadığını, eyni zamanda müasir inkişaf modelinə uyğun şəkildə formalaşdırıldığını göstərir. Doğma torpaqlarına qayıdan insanlar üçün bu torpaqlar sadəcə yaşayış məkanı deyil, həm də ümid, inam və gələcək deməkdir. Hər bir bərpa olunan kənd, hər bir yenidən salınan qəsəbə Azərbaycanın uzunmüddətli inkişaf strategiyasının tərkib hissəsidir. Qarabağ bu gün yeni bir mərhələyə qədəm qoyur - sülhün, quruculuğun və davamlı inkişafın mərhələsinə. Müharibəni şanlı Zəfərlə başa vuran, öz gücünə ərazi bütövlüyünü və suverenliyini tam təmin edən qalib Azərbaycan quruculuq sahəsində də dünyaya nümunə göstərir. Dövlət başçısı çıxışında bildirib ki, bu gün Qarabağda və Şərqi Zəngəzurda artıq 48 şəhər və kənddə insanlar yaşayır: "Yeni keçmiş köçkünlər qayıdıb, orada işləyənlər, təhsil alanlar məskunlaşıb. "Böyük Qayıdış" Proqramı uğurla icra edilir. Bax, dediyim bu şəhər və kəndlərdə artıq 90 mindən çox insan yaşayır. Yəni həyat qayıdıb və bu, bizim böyük nailiyyətimizdir, tarixi nailiyyətimizdir. Xalqımız 30 il ərzində əzab-əziyyət içində yaşayıb. Bu gün isə qalib xalq kimi, müzəffər dövlət kimi yaşayırıq".

**Ermənistanla Azərbaycan arasında sülh prosesi gedir**

Artıq "Qarabağ münaqişəsi"" anlayışı beynəlxalq siyasi leksikondan çıxıb və tarixə qovuşub. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməklə tək hərbi qələbə qazanmadı, eyni zamanda regionda yeni geosiyasi və geoiqtisadi reallıqlar formalaşdırdı. Qalib dövlət statusu Azərbaycana bölgənin gələcəyini müəyyənləşdirən əsas aktor kimi çıxış etmək imkanı verdi. Azərbaycanın gücü və siyasi iradəsi nəticəsində Cənubi Qafqazda yeni sülh mərhələsi başlayıb. Sülh təkcə müharibənin bitməsi deyil, eyni zamanda inkişaf, tərəqqi və uzunmüddətli sabitlik üçün əsas şərtdir. Xüsusilə müasir dünyada sülh amili iqtisadi inkişafın, investisiya axınının və regional əməkdaşlığın əsas açarına çevrilib.

Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması həm də Cənubi Qafqazın həyatında yeni - sabit və inkişafa yönəlik dövrün başlama perspektivini formalaşdırır. Sülh prosesi yeni iqtisadi-siyasi nizamın ilkin strixlərindən birinə çevrilə bilər - məhz imzalanacaq sülh Cənubi Qafqazın yeni dönəmdə stabil və sabit məkan kimi inkişafına yol açacaq, ümumən bölgənin qlobal layihələrdəki iştirakını daha da irəliyə daşıyacaq. Bir sözlə, Azərbaycanın təşəbbüskarı və müəllifi olduğu, Bakının diktəsi ilə həyata keçən sülh layihəsinin prioritet istiqamətləri bütövlükdə Cənubi Qafqaz üçün inkişaf tempi perspektivi vəd edir. Prezident İlham Əliyev çıxışında bildirib ki, bu gün sülh var və müharibə dayanıb: "Ermənistanla Azərbaycan arasında sülh prosesi gedir və əminəm ki, bu, uzunmüddətli olacaq. Hər halda Azərbaycan dövlətinin mövqeyi bundan ibarətdir".

**Törədilən vəhşilikləri heç vaxt unutmayacağıq**

Bununla belə, Azərbaycan xalqı özünün dünənini unutmur, keçmişi yaddan çıxarmır. Çünki torpaqlarımızın azadlığı olduqca gərgin, keşməkeşli bir prosesin nəticəsi oldu - bu yolda canından keçən minlərlə igid Azərbaycanın ədalətli mövqeyinin bərqərar olunmasına töhfə verdi. Bu səbəbdən də tariximizi unutmamalıyıq - əksinə, ondan dərs çıxarmalı, gələcək üçün nümunə yaratmalıyıq. Dövlət başçısı çıxışında qeyd edib ki, biz bizə qarşı, xalqımıza qarşı törədilən vəhşilikləri heç vaxt unutmayacağıq: "Xocalı qurbanlarını unutmayacağıq, dağıdılmış məscidlərimizi, təhqir edilmiş mədəni ocaqlarımızı heç vaxt unutmayacağıq və bu yaddaş bizi daha da ayıq edəcək. Bu yaddaş imkan verməyəcək ki, biz yenə də şirin sözlərə aldanaq, imkan verməyəcəyik ki, yenə də xalqımıza qarşı hansısa məkrli planlar baş tutsun. Biz ayıq olmalıyıq, ayığıq və eyni zamanda, öz hərbi gücümüzü də artırırıq".

*Pərviz SADAYOĞLU*

# Dünyada İslam həmrəyliyi naminə...

## İlham Əliyev: Biz Azərbaycanda hər zaman çalışmışıq və çalışacağıq ki, İslam həmrəyliyini əməli-praktiki addımlarla, öz işimizlə gücləndirək

Dünya tarixindən bəllidir ki, bir sıra hallarda ayrı-ayrı dövlətlərin hansısa platformalarda birləşmələri uzunömürlü olmur. Bunun da əsas səbəbi ondan ibarətdir ki, belə platformalar keçici maraqlar əsasında formalaşır. Azərbaycanın geniş İslam coğrafiyası ilə əlaqələri isə bir sıra təbii amillərə və əlbəttə ki, perspektivə, siyasi və iqtisadi maraqlara əsaslanır.

Bu günlərdə Bakının eyni vaxtda iki mühüm tədbirə - Türk Dövlətləri Təşkilatının Müsəlman Dini Rəhbərləri Şurasının 7-ci toplantısına və böyük şair, mütəfəkkir Seyid Yəhya Bakuviyə həsr olunmuş beynəlxalq konfransa ev sahibliyi etməsi Azərbaycanın siyasətinin mühüm əlamətidir. Başqa sözlə ifadə etsək, bu, dövlətimizin və xalqımızın türk dünyasına və İslam coğrafiyasına dərin rəğbətinin təsdiqidir. Bunun böyük rəmzi mənası var. Prezident İlham Əliyev Bakıda keçirilən konfransların iştirakçılarını qəbul edərkən bildirib ki, məhz belə birgə tədbirlər bizi daha da birləşdirir, aramızdakı dostluq, qardaşlıq əlaqələrini gücləndirir və dünyaya çox gözəl mesajlar verir.



**Tarixə, İslam dəyərlərinə dərin hörmət və bağlılıq**

Müasir dövlət kimi inkişaf edən Azərbaycan öz siyasətində daim tarixi köklərə istinad edir və ənənələrə, milli-mənəvi dəyərlərə həmişə yüksək bağlılıq sərgiləyir. Ölkəmizin geniş İslam coğrafiyası ilə münasibətlərinin dərinləşməsinə münbit zəmin yaradan əsas faktorlardan biri məhz tarixi bağlılıq amilidir. Müqəddəs dinimiz, oxşar mənəvi dəyərlərimiz ölkələrimizi və xalqlarımızı birləşdirən çox mühüm amil qismində çıxış edir. Ölkəmiz İslam dövlətləri ilə əməkdaşlığını ikitərəfli qaydada, həmçinin beynəlxalq platformalar üzərindən genişləndirir.

VII-VIII əsrlərdən etibarən Azərbaycan xalqının həyat tərzi, mədəniyyəti, məişəti İslam dini ilə sıx vəhdətdə olub. Ölkə ərazisində mövcud olan Əshabi-Kəhf ziyarətgahı, Qafqazın ən qədim məscidi - 743-cü ildə əsası qoyulmuş Şamaxı Cümə məscidi, Bibiheybət məscid-ziyarətgah kompleksi, Gəncə "İmamzadə" kompleksi və digər çoxsaylı abidələr Azərbaycanın İslam dini-mədəni dəyərlər sisteminə əhəmiyyətli töhfəsi kimi qiymətləndirilə bilər. Xalqımız həmişə öz tarixi keçmişinə, mənəvi sərvətlərinə hörmətlə yanaşıb, hətta 1918-ci ildə yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin dövlət simvolu olan bayrağında da İslama mənsubluğunu əks etdirib. Keçmiş ittifaqın tərkibində olduğu dövrdə də xalqımız sərt ideoloji basqılara baxmayaraq, öz dini dəyərlərinə sadiqliyini qoruyub saxlayıb.

Ötən əsrin əvvəllərində Azərbaycan müstəqillik qazandıqdan sonra xalqımız özünün tarixdən gələn milli-dini dəyərlərinə tam sahiblik hüququ qazanıb. Ulu Öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycanın siyasi hakimiyyətinə qayıtdıqdan sonra isə respublikamızda din və vicdan azadlığı tam təmin edilib, o cümlədən dini abidələrin, məscidlərin, ibadətgahların bərpası istiqamətində mühüm işlər görülüb. Sonradan bu siyasət Prezident İlham Əliyev tərəfindən eyni ardıcıllıqla davam etdirilib. Əgər SSRİ dövründə Azərbaycanda cəmi 17 məscid fəaliyyət göstərirdisə, hazırda onların sayı 2000-dən çoxdur. O cümlədən 300-dən artıq məscid dövlət tərəfindən tarixi abidə kimi qorunur. Bibiheybət məscid-ziyarətgah kompleksi, Təzəpir məscidi, İçərişəhər Cümə və Həzrət Məhəmməd məscidləri, Əjdərbəy məscidi, Şamaxı Cümə məscidi, Gəncə "İmamzadə" kompleksi və onlarla digər dini abidə və məscid dövlət tərəfindən əsaslı şəkildə təmir və bərpa edilərək dindarların istifadəsinə verilib. Müstəqillik dövründə Bakıda Qafqazda ən böyük ibadət ocağının - Heydər Əliyev məscidinin inşası qürurverici haldır. Eyni zamanda, hazırda azad ərazilərimizdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu işğal illərində erməni vandalizminə məruz qalmış dini abidələrimizin bərpasını həyata keçirir.

**İƏT-in ən fəal üzvlərindən biri - gələn il Bakıda İslam Əməkdaşlıq Təşkilatının Zirvə Görüşü keçiriləcək**

Dövlətimizin başçısının vurğuladığı kimi, Azərbaycan təmsil olunduğu bütün təşkilatlarda birləşdirici, barışdırıcı və əməkdaşlığa istiqamət verən ölkə kimi çıxış edir. Respublikamız həmçinin İslam Əməkdaşlıq Təşkilatı (İƏT) çərçivəsində də belə prinsipial mövqe ortaya qoyur.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra keçmiş sovet respublikaları arasında ilk olaraq İslam Əməkdaşlıq Təşkilatına üzvlüklə bağlı müraciət ünvanlayıb və 1991-ci il dekabrın 8-də qurumun Dakarda keçirilmiş dövlət və hökumət başçılarının 5-ci konfransında təşkilata tamhüquqlu üzv qəbul edilib. İslam dövlətlərinin birliyi və həmrəyliyinə xidmət edən İKT üzv dövlətlərin üzləşdikləri münaqişələrin aradan qaldırılması üçün də addımlar atır. Onun orqanları İslam ölkələri ilə bağlı münaqişələr və bu ölkələrin məruz qaldığı təcavüzlərin qiymətləndirilməsində mövafiq qərarlar qəbul edir.

Ölkəmiz İƏT çərçivəsində əməkdaşlığa böyük önəm verir və təşkilatın səmərəli fəaliyyət göstərməsində yüksək fəallıq göstərir. Bunun təsdiqi olaraq respublikamız indiyədək İƏT-in bir sıra mühüm tədbirlərinə ev sahibliyi edib. Azərbaycan-İƏT əməkdaşlığının gücləndirilməsinin əsas göstəricilərindən biri olaraq təşkilatın xarici işlər nazirlərinin 33-cü sessiyası 19-21 iyun 2006-cı ildə Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilib. Bu əməkdaşlığın davamı olaraq Bakıda təşkilatın növbəti yüksək səviyyəli tədbirləri-İƏT turizm nazirlərinin 5-ci görüşü (sentyabr, 2006) və "Dözümlülüyün və qarşılıqlı anlaşmanın inkişafında kütləvi İnformasiya Vasitələrinin rolu" mövzusunda beynəlxalq konfrans (aprel, 2007) keçirilib. 11-12 noyabr 2009-cu il tarixlərində Azərbaycan Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası İƏT Baş Katibliyi ilə birgə qurumun yaradılmasının 40 illik yubileyi münasibətilə Bakıda "Sivilizasiyalararası dialoq: Azərbaycandan baxış" adlı beynəlxalq elmi konfrans təşkil edib. İƏT Baş katibinin iştirak etdiyi konfransda dini və mədəni müxtəliflik, bu sahədə Azərbaycanın təcrübəsi, dinlərarası dialoqun qarşılaşdığı problemlər, İslam geosiyasəti kimi mövzular üzrə elmi müzakirələr aparılıb. Bu sırada həmçinin 2008-ci ilin 6-8 oktyabr tarixlərində Bakıda baş tutan İslam ölkələrinin ali təhsil və elmi tədqiqatlar nazirlərinin IV konfransını, 2009-cu ilin 21-22 aprel tarixlərində keçirilən İKT üzv ölkələrinin hüquq mühafizə orqanları rəhbərlərinin görüşünü, 20-21 oktyabr 2014-cü il tarixlərində Bakının ev sahibliyi etdiyi "İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin inkişafında qadınların rolu" mövzusunda V beynəlxalq konfransı və digər çoxsaylı tədbirləri qeyd edə bilərik. Eləcə də "Bakı-İslam Mədəniyyətinin Paytaxtı-2009" mədəniyyət ili çərçivəsində paytaxtımızda İƏT-ə üzv dövlətlərin mədəniyyət nazirlərinin VI Konfransı keçirilib. Azərbaycan İƏT Gənclər Forumu, İƏT Əmək Mərkəzi, İƏT-ə Üzv Dövlətlərin Jurnalistləri Assosiasiyası kimi yeni qurumların yaradılmasının təşəbbüskarı kimi çıxış edib. Gələn il isə Bakıda İslam Əməkdaşlıq Təşkilatının Zirvə Görüşü keçiriləcək. Şübhəsiz ki, Zirvə Görüşündə bütün İslam dünyası üçün mühüm əhəmiyyət daşıyan qərarlar qəbul ediləcək.

Azərbaycan - İƏT əlaqələrinin genişlənməsindən bəhs edərkən Cənubi Qafqazın ən böyük ictimai təşkilatı olan Heydər Əliyev Fondu ilə qurumun mühüm strukturlarından biri sayılan İCESCO arasında geniş əhatə dairəsinə malik əməkdaşlığın rolunu xüsusi vurğulamaq lazımdır. 4 oktyabr 2006-cı ildə Heydər Əliyev Fondunda keçirilən görüşdə ICESCO-nun prezidenti Osman əl-Tvəycri tərəfindən Mehriban Əliyevaya ICESCO-nun xoşməramlı səfiri nişanı təqdim olunub. Azərbaycanın birinci xanımı bu ada təhsilin və sivilizasiyalar arasında dialoqun inkişafında göstərdiyi xidmətlərinə görə layiq görülüb. 2007-ci ilin 28 oktyabr - 2 noyabr tarixlərində Heydər Əliyev Fondu, Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Təşkilatının Gənclər Forumu, BMT-nin İnkişaf Proqramı, ICESCO və Avropa Şurası ilə birgə təşkil edilmiş "Gənclər Sivilizasiyaların Alyansı uğrunda" beynəlxalq təşəbbüs çərçivəsində Bakı şəhərində "Alyans" gənclik düşərgəsi və yüksək səviyyəli konfrans keçirilib.

Öz növbəsində, İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın beynəlxalq səviyyədə İslam və digər sivilizasiyalar arasında əməkdaşlığın möhkəmlənməsinə verdiyi töhfələri yüksək dəyərləndirir. Qurum Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasətini həmişə birmənalı şəkildə pisləyib və respublikamızın tarixi ədalətə və beynəlxalq hüquqa əsaslanan mövqeyinə uyğun qətnamələr qəbul edib. 2025-ci il 21-22 iyunda İstanbulda keçirilən İslam Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının 51-ci sessiyasının yekununda "İstanbul Bəyannaməsi", habelə ölkəmizin təşəbbüsü ilə irəli sürülmüş 5 qətnamə qəbul edilib. Sessiya zamanı Qərbi Azərbaycan İcması ilə bağlı qətnamənin qəbul edilməsi xüsusilə əlamətdar hadisə hesab olunur. Qeyd edək ki, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində ilk dəfə olaraq qəbul olunan "Hazırkı Ermənistan ərazilərindən zorla və sistematik şəkildə didərgin salınmış azərbaycanlıların qayıdış hüququ" adlı qətnamədə təşkilata üzv ölkələrin Qərbi Azərbaycan İcmasının öz yurdlarına ləyaqətli qayıdış hüququna dəstəyi ifadə olunur. Həmçinin, Ermənistan tərəfindən İcmanın hüquqlarının inkar olunması qınanılır.Təşkilat həmçinin İslam İnkişaf Bankı və digər islam xeyriyyə cəmiyyətləri vasitəsilə Azərbaycana, Ermənistanın təcavüzü nəticəsində öz torpaqlarından zorla qovulmuş azərbaycanlı qaçqın və məcburi köçkünlərə iqtisadi və humanitar yardımlar göstərilməsini təmin edib.

Azərbaycan xalqı üçün son dərəcə əziz olan Şuşanın 2024-cü il üçün İslam dünyasının mədəniyyət paytaxtı elan olunması son dərəcə qürurvericidir. Azərbaycan dövləti və cəmiyyəti İslam dünyasının bəhs olunan qərarını böyük məsuliyyət kimi qəbul edib. Prezident İlham Əliyev 21 noyabr 2023-cü il tarixində "Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Sərəncama uyğun olaraq "Şuşa İli" çərçivəsində bütün İslam dünyasını bir araya gətirən və zəngin mədəniyyətimizi təbliğ edən çoxsaylı tədbirlər keçirilib. Eyni zamanda, qeyd edək ki, Bakı 2009-cu il, Naxçıvan şəhəri isə 2018-ci il üçün İslam dünyasının mədəniyyət paytaxtı elan olunub.

**IV İslam Həmrəyliyi Oyunları - Bakıda birlik bayramı**

Özünü İslam dünyasının ayrılmaz hissəsi hesab edən Azərbaycan, eyni zamanda, beynəlxalq miqyasda İslam həmrəyliyinin möhkəmlənməsinə, İslam dəyərlərinin və mədəniyyətinin təbliğinə öz töhfəsini verir. Heydər Əliyev Fondunun dəstəyi ilə 2012-ci ildə Parisdəki məşhur Luvr muzeyində İslam mədəniyyəti bölməsinin açılması buna yaxşı nümunədir. Bundan başqa, Fondun reallaşdırdığı "Azərbaycan Parisin ürəyində" adlı layihə çərçivəsində İslam mədəniyyətinin tərkib hissəsi olan milli mədəniyyətimiz geniş şəkildə təbliğ edilib.

Prezident İlham Əliyev qəbulda hazırda İslam ölkələri üçün meydana çıxan mühüm çağırışlardan biri olan həmrəyliyin gücləndirilməsinin zəruriliyinə xüsusi diqqət çəkib. Məlumdur ki, hazırda kifayət qədər geniş coğrafiyanı əhatə edən İslam dünyasında arzuolunmaz kataklizmlər yaşanır. Ardı-arası kəsilməyən müharibələr, vətəndaş qarşıdurmaları, xarici müdaxilələr, dövlətçilik ənənələrini məhv edən hakimiyyət çevrilişləri, terror hadisələri, uşaqların acınacaqlı taleyi, maddi mədəniyyət abidələrinin kütləvi şəkildə dağıdılması... Təəssüf doğuran haldır ki, bütün bu kimi neqativ hallar bu gün müsəlman dünyasının kədərli mənzərəsini təşkil edir. Tarix boyu bəşər sivilizasiyasının zənginləşməsinə sanballı töhfələr verən və təbii ehtiyatlarla zəngin olan ayrı-ayrı müsəlman ölkələri bu gün aclıqdan, səfalətdən əziyyət çəkirlər. Diqqəti çəkən məqam həm də ondan ibarətdir ki, İslam mədəniyyətinə və coğrafiyasına təhdid meyilləri getdikcə daha da artır, islamofobiya güclənir.

Açıq etiraf etmək lazımdır ki, İslam dünyasında yaşanan gərginliklərin ən ciddi səbəblərindən biri məhz ölkələr arasında həmrəyliyin olmamasıdır. İndiki çətin və sınaq dövründə İslam mədəniyyətinin daşıyıcısı olan ölkələr ümumi məqsədə xidmət edən siyasət aparmaq əvəzinə, necə deyərlər, bir-birlərinin ayağını çəkməklə məşğuldurlar. Bu da onları gücdən salır. Təbii ki, düşmənlər də elə bu lazımdır. Bir-birindən ayrı düşən ölkələri, xalqları əzmək, sərvətlərini talamaq daha asandır.

Bütün bunlar indiki dövrdə İslam coğrafiyasında ölkələr və xalqlar arasında həmrəyliyin nə qədər vacib olduğu barədə konkret təsəvvür yaradır. Azərbaycan öz nümunəsində İslam həmrəyliyinin gücləndirilməsinə nail olmağa çalışır və bu məqsədlə daim yeni təşəbbüslərlə çıxış edir. Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan olunması Azərbaycanın müsəlman aləmində həmrəyliyin möhkəmlənməsinə göstərdiyi siyasi iradəsini ifadə edir.

Azərbaycan 2017-ci ildə Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunları ilə müsəlman aləmində həmrəyliyin gücləndirilməsinə növbəti töhfəsini verdi. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Təşkilat Komitəsinin yüksəksəviyyəli hazırlıq işləri görməsi sayəsində Bakıda ən nümunəvi İslam Oyunları baş tutdu. Əksər İslam ölkələrindən təxminən 3 min idmançının iştirakı ilə keçirilən IV İslam Həmrəyliyi Oyunları tarixdə qalsa da, bu möhtəşəm tədbirlə bağlı təəssüratlar hələ də yaddaşlardan silinməyib. Azərbaycan İslam aləminə böyük rəğbətinin ifadəsi olaraq Oyunların yüksək səviyyədə keçməsinə nail olmaq üçün hər şeyi etdi. Təsadüfi deyil ki, Bakıda əsl idman bayramına çevrilən Oyunlar İslam həmrəyliyinin güclənməsinə sanballı töhfə kimi dəyərləndirilir. Bu Oyunların keçirilməsinin başlıca məqsədi İslam dünyasının idmançıları arasında təması gücləndirmək, onları bir-birinə daha da yaxınlaşdırmaq, dostluq və əməkdaşlıq əlaqələrini möhkəmlətmək olub. Əlamətdar haldır ki, Oyunlar zamanı bəzi hallarda siyasi cəhətdən o qədər də yaxın münasibətləri olmayan ölkələrin nümayəndələri bir-birini təbrik edir, bir-birinin uğuruna sevinir, bir-birinin əlini sıxırdılar. "Bugünkü dünyada və xüsusilə müsəlman aləmində baş verən bəzi hadisələr, təbii ki, bizim hamımızı narahat edir. Biz Azərbaycanda hər zaman çalışmışıq və çalışacağıq ki, İslam həmrəyliyini əməli-praktiki addımlarla, öz işimizlə gücləndirək. Azərbaycanda İslam Əməkdaşlıq Təşkilatı, ICESCO təşkilatı xətti ilə bir çox tədbirlər keçirilmişdir. Hələ təxminən 10 il bundan əvvəl - 2017-ci ildə bizim təşəbbüsümüzlə və bütün müsəlman ölkələrinin dəstəyi ilə Bakıda IV İslam Həmrəylik Oyunları keçirilmişdir. Biz də bu Oyunları, sadəcə olaraq, idman yarışı kimi deyil, böyük birlik bayramı kimi qəbul edirdik", - deyə Prezident İlham Əliyev vurğulayıb.

***Mübariz ABDULLAYEV***

# Avropa Parlamenti rüşvətxorlar yuvasıdır

## Erməni lobbisinin "xidməti"ndən yararlananlar ifşa edilir

1990-cı illərin əvvəlində Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi qlobal dünya tərəfindən susqunluqla qarşılanmışdı. Bu işğal faktına göz yuman, BMT TŞ-nın məlum qətnamələrini yerinə yetirməyən, beynəlxalq aləmin tələblərinə məhəl qoymayan qlobal areal isə hər kəsə məlumdur - söhbət adını "beynəlxalq təşkilat" qoymuş Avropanın bir sıra strukturlarından gedir. Ötən 30 ildə Azərbaycan dövləti işğala məruz qalan tərəf olsa da, sülh prinsipini hər zaman ön sırada tutdu, problemin danışıqlar yolu ilə həllinə üstünlük verdi. Amma adını bəzi "beynəlxalq" təsisatlar, təşkilatlar qoyanlar Azərbaycanın sülhpərvər mövqeyini dəstəkləmək, onu dəyərləndirmək əvəzinə daha çox işğalçının yanında yer aldılar. Təbii ki, bu məsələdə xaricdəki erməni lobbisinin "xidməti" xüsusi dəyərləndirilməlidir. Beynəlxalq təşkilatların üzvlərinin, hətta rəsmilərinin belə rüşvətlə ələ alınması, korrupsiya girdabına düşməsi müasir dünyada tez-tez rast gəlinən presedentlərdən sayılır.

Prezident İlham Əliyev sentyabrın 15-də Türk Dövlətləri Təşkilatının (TDT) müsəlman dini idarə rəhbərləri Şurasının üzvlərindən və müşahidəçilərindən, Yəhya Bakuvi Beynəlxalq Konfransının həmtəşkilatçılarından və Qafqaz Xalqları Ali Dini Şurasının üzvlərindən ibarət nümayəndə heyətini qəbul edərkən bildirib ki, biz kimlərlə üzbəüz qalmışdıq, yəni Ermənistan təkbaşına deyildi: "Ermənistan təkbaşına olsaydı, bu məsələ çoxdan həll olunardı. Yaxud da ki, o vaxt bu işğala, bu vəhşiliyə, bu soyqırımına görə Ermənistana beynəlxalq sanksiyalar tətbiq edilsəydi, məsələ çoxdan həll olunardı. Eləmədilər, bilərəkdən, qəsdən. İndi yeri gəldi-gəlmədi, hər yerə sanksiyalar qoyulur. Amma yaxşı, Ermənistan burada başqa dövlətin 20 faiz torpağını zəbt edib, 700 min insanı oradan qovub, 250 min insanı - azərbaycanlıları Ermənistandan qovub, dağıdıb hər şeyi, bütün şəhərləri. Sən niyə ona sanksiya tətbiq etmirsən? Bu, deməli, ikili standartlardır. Haradan gəlir bu ikili standartlar, aydın məsələdir".

**Avropa adına ləkə gətirən "parlament"**

Bu fikirləri Avropa Parlamentinə də şamil etmək olar. Avropa İttifaqının üzvü olan ölkələrin enerji təminatında mühüm rol oynayan, ümumilikdə Aİ ilə mühüm enerji dialoqu aparan Azərbaycana qarşı Avropa Parlamentinin əsassız və qeyri-hüquqi "qətnamələrlə" çıxış etməsi anlaşılan deyil. Ayıbına kor olmayan Avroparlament ölkəmizə qarşı qərəzli və ikili standartlara əsaslanan münasibət sərgiləməkdənsə, öz imicini yerlə-bir etmək üçün "səfərbər olur", növbəti ədalətsiz addımlara əl atır. Əlbəttə ki, bu kimi "korrupsioner havadarlığın" da bir gizli mənbəyi olmalıdır. Bu mənbənin kimliyi isə hər kəsə bəllidir - Qərbin ermənipərəst siyasətçilərinin, qurumlarının üzündən maskalar endikcə əsl sima(sızlıq)ları üzə çıxır, kimlərin kölgəsinə sığındıqları üzə çıxdı. Anti-Azərbaycan mövqeyi ilə "şöhrət qazanan" Bob Menendezin, Eva Kailinin Avropa parlamentindəki şəriklərinin əsl mahiyyəti ortaya qoyuldu. Maraqlıdır ki, irqçi, islamafob, Azərbaycanofob, türkofob mövqeyi və ikili standartları ilə tanınan Avropa Parlamenti üzvlərinin adları intensiv şəkildə çirkin korrupsiya faktlarında hallanır, ifşa edilirlər.

**Eva Kailinin milyonları və zinətləri...**

Sirr deyil ki, 2023-cü ilin sentyabrından başlayaraq Azərbaycana qarşı heç bir hüquqi ölçüyə sığmayan qərəz tonunda mövqe sərgiləyən Avroparlament üzvlərinin əksəriyyəti erməni lobbisinin qanadları altına sığınıb. Maddi yardım qarşılığında erməni lobbi üzvlərinin "dəyənəyi"nə çevrilmiş bu "parlamentarilər" həmin lobbi üzvlərinin "dirijor çubuğu" ilə də idarə olunurlar. Heç bir hüquqi əsası olmayan qondarma tələblər də məhz həmin deputatlara verilən "sifarişlərin" nəticələridir. Çox uzağa getmədən bir neçə il öncə Avropa Parlamentinin Yunanıstandan olan vitse-prezidenti Eva Kailinin milyonlarla dollarlıq korrupsiya skandalları ilə gündəmə gəlməsini xatırlayaq - bu fakt özlüyündə hər şeyi deyir. Azərbaycana qarşı çağırışların daimi "səsləndiricisi" olan deputatlar erməni lobbisinin pulu ilə işləyir - maliyyələşmənin arxasında Avropada yaşayan erməni əsilli milyarderlər dayanır. Maraqlı nüanslardan biri də korrupsiya faktı ilə həbs edilmiş Eva Kailinin həbsinə qədər onun Avropa Parlamentinin Avropa İttifaqı-Ermənistan dostluq qrupunun üzvü olması və bu çərçivədə Ədalət və Demokratiya uğrunda Ümumavropa Erməni Federasiyası (EAFJD) təşkilatı ilə sıx əlaqələri idi. Bu təşkilatın prezidenti ermənilərin "almaz imperatoru" adlandırdıqları milyarder Kaspar Karapetyandır. Karapetyan on illər boyunca Avropa Parlamentinin bir çox deputatlarının yalnız Ermənistana deyil, eləcə də Qarabağa qanunsuz səfərlərini təşkil edib. Onun xüsusilə, avroparlament üzvlərinin "Daşnaksutyun" partiyasının təmsilçiləri ilə mütəmadi görüşlərini təşkil etməsi, habelə maliyyə dəstəyi göstərməsi real mənzərəni göz önündə canlandırır. Prezident İlham Əliyev çıxışında qeyd edib ki, Avropa Parlamenti rüşvətxorlar yuvasıdır: "Bunu mən tam məsuliyyətlə deyirəm - rüşvətxorlar yuvasıdır Avropa Parlamenti. Onun vitse-prezidentinin evindən çamadanlarla dolu milyonlarla dollar çıxdı, hamısını ört-basdır etdilər. Elə bil olmayıb bu. Onun adı bəllidir, o, Yunanıstandan olan bir xanım deputatdır. Necə il keçib onun üstündən? Bir ölçü götürülüb ona qarşı? Yox! Məsuliyyətə cəlb edilib? Yox! Sərbəst buraxılıb. Avropa Parlamenti bax, bu islamofoblardan ibarətdir və bu da daim diqqət mərkəzində olmalıdır".

**AP-nin korrupsiya "traktatı"...**

Siyahı tək yunan deputatla da yekunlaşmır - bir neçə il öncə Avropa Parlamentində öz mövqelərini dəstəkləmək müqabilində Qətər və Mərakeşdən rüşvət almaqda şübhəli bilinən Avropa Parlamentinin iki deputatı da təqsirləndirilmişdi. Avroparlamentin deputatları Andrea Kozzolino və Mark Tarabella həbs edilərək Brüssel prokurorluğunda dindirilmişdi. Hər iki siyasətçi Avropa İttifaqında qərarlara təsir etmək üçün "üçüncü ölkələr"dən müavinət almaqda ittiham olunurdu.



Növbəti fakt - Avropada yaşayan erməni milyarderlərdən aldıqları pul və ya başqa "xidmət" qarşılığında erməni maraqlarına işləyənlər arasında Avropa Parlamentinin nüfuzlu deputatlarından olan Eleni Teoxarusu və Frank Enqel də olub.

Və ya başqa bir fakt - bir neçə il öncə Almaniya mediası Avropa Parlamentinin spikeri olmuş Roberta Metsola ilə bağlı məlumat yaymışdı. Bildirilirdi ki, o, əri ilə birlikdə Fransanın təmtəraqlı otelində keçirdiyi gecənin xərcinin Şərab İstehsalçıları Assosiasiyası tərəfindən ödənilməsi haqda məlumat verməyib. Bu barədə söz-söhbət çox yayılsa da, spikerə heç bir sanksiya tətbiq edilmədi. Halbuki, Avropa Parlamentinin spikerinin vəzifələrindən biri bu təşkilatın üzvlərinin bahalı otellərdə, dəbdəbəli restoranlarda keçirdikləri vaxt, təyyarələrdə biznes-salonlarda uçuşlar, şou proqramlarına və idman yarışlarına VIP-lojalarda tamaşa etmək xərclərinin kənar şəxslər tərəfindən ödənilməsi barədə təhqiqat aparmaq, bu barədə hesabatlar təqdim etməmiş Avroparlament deputatlarının cəzalandırılması haqda qərar qəbul etməkdən ibarətdir. Avropa Parlamentinin spikerinin özü bu qaydalara riayət etmirsə, kimdən hesab soruşa bilər? Deməli, Avroparlamentdə rüşvət və korrupsiya ənənəvi hal sayılır.

***P.İSMAYILOV***

# Bakı türk dünyasının mərkəzinə çevrilir



Hazırda türk dövlətlərinin və xalqlarının birliyi üçün mühüm addımlar atılır. Türk dövlətləri arasında siyasi, iqtisadi, mədəni, o cümlədən hərbi sahələrdə əməkdaşlığın gücləndirilməsi istiqamətində qəbul olunan qərarlar türk birliyinin qlobal gücə çevrilməsi yolunda atılan addımlardır. Türk Dövlətləri Təşkilatının (TDT) yaradılması isə türk dünyasının birliyinin gücləndirilməsi istiqamətində tarixi mərhələ oldu. Artıq hər il TDT-nin zirvə toplantıları çərçivəsində, eləcə də ikitərəfli münasibətlər kontekstində türk dövlətlərinin münasibətlərinin gücləndirilməsi üçün sistemli tədbirlər həyata keçirilir.

**Türk dünyası daha da güclənir**

Son illər TDT-nin sammitlərində qəbul olunan qərarlar artıq türk dünyasını dünyaya qlobal güc kimi təqdim edir. Nəzərə alaq ki, TDT müstəvisində təkcə Zirvə görüşləri keçirilmir, türk dövlətlərinin müvafiq dövlət qurumlarının, strukturların təşkilatlanmış platformaları da yaradılıb və onların da vaxtaşırı toplantıları keçirilir. Təqdirəlayiq haldır ki, bu prosesdə Azərbaycan çox fəal iştirak edir. Sentyabrın 14-də Bakıda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin müsəlman dini idarə rəhbərlərinin VII görüşünün keçirilməsi də bunun göstəricisidir. Ümumilikdə tədbirə 40 ölkəni və 15 beynəlxalq təşkilatı təmsil edən dövlət, elm və din xadimləri qatılıblar.

Bir gün sonra - sentyabrın 16-da isə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) və Türk Dövlətləri Təşkilatının (TDT) Katibliyinin birgə təşkilatçılığı ilə Bakıda "Türk dövlətlərinin aparıcı milli analitik mərkəzlərinin II beynəlxalq konfransı" keçirilib. Tədbir yüksək səviyyəli beynəlxalq platforma kimi dövlət qurumlarının nümayəndələrini, aparıcı analitik mərkəzlərin rəhbərlərini, akademik dairələri, beynəlxalq təşkilatların təmsilçilərini, maliyyə institutlarını və biznes ictimaiyyətini bir araya gətirib. Konfransın məqsədi yalnız elmi və analitik müzakirələrin təşkili deyil, həm də Türk dünyasında uzunmüddətli tədqiqat şəbəkələrinin formalaşdırılması, ekspertlər arasında davamlı dialoqun inkişaf etdirilməsi və siyasət qərarlarının elmi əsaslarla dəstəklənməsinə töhfə verməkdir.

Konfransın açılışında İİTKM-in icraçı direktoru Vüsal Qasımlı TDT ölkələrinin iqtisadi potensialı və əməkdaşlıq perspektivlərindən danışıb. O, ticarət və investisiya əlaqələrinin, logistika imkanlarının və Orta Dəhlizin inkişaf etdirilməsini, maliyyə və ixrac potensialından səmərəli istifadəni, rəqəmsal transformasiya və innovasiyaların təşviqini əsas prioritetlər kimi qeyd edib.

**TDT-ə üzv və müşahidəçi ölkələrin 180 milyon əhalisi var**

TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev bildirib ki, təşkilatın üzv və müşahidəçi ölkələrinin ümumi əhalisi 180 milyon nəfərdir. Onun sözlərinə görə, bu göstərici Türk dövlətlərinin iqtisadi potensialının miqyasını və həmin potensialın ümumi rifaha çevrilməsi istiqamətində əməkdaşlığın əhəmiyyətini göstərir.

Milli Məclis sədrinin müavini Musa Qasımlı türk xalqlarının birliyinin dövlət başçılarının fəaliyyəti sayəsində daha da möhkəmləndiyini bildirib. O, ortaq türk dilinin formalaşdırılmasını, ümumi tarix, mədəniyyət və köklərin Türk dünyasını birləşdirən əsas amillər olduğunu vurğulayıb.

Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin müavini, Türk Dövlətləri ilə Əlaqələr Baş İdarəsinin rəhbəri Kürşad Zorlu Orta Dəhlizin Türk dünyasının coğrafi və iqtisadi əlaqələrinin gücləndirilməsində mühüm rol oynadığını bildirib. O qeyd edib ki, marşrut üzrə yükdaşımaların həcminin qarşıdakı dövrdə üç dəfəyə qədər artması tranzit imkanlarının genişlənməsinə, ticarət dövriyyəsinin və regional iqtisadi əməkdaşlığın artmasına mühüm töhfə verə bilər.

**Orta Dəhlizin regional inteqrasiyadakı rolu**

Daha sonra tədbir panel müzakirələrlə davam edib. Birinci panel "Orta Dəhliz regional inteqrasiya və infrastruktur yönümlü inkişaf üçün katalizator kimi" mövzusuna həsr olunub. Panel çərçivəsində Orta Dəhlizin 2040-cı ilədək Türk dünyasının strateji nəqliyyat və iqtisadi dayağına çevrilməsi, infrastruktur və gömrük sistemlərinin uyğunlaşdırılması, logistikanın səmərəliliyinin artırılması və regional dəyər zəncirlərinin formalaşdırılması məsələləri müzakirə olunub. Həmçinin Orta Dəhlizin ticarət yollarının şaxələndirilməsi və Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin iqtisadi dayanıqlığının gücləndirilməsində rolu vurğulanıb.

İkinci panel "TDT dövlətləri arasında ticarət və iqtisadi əlaqələrin qiymətləndirilməsi: tendensiyalar və istifadə olunmamış imkanlar" mövzusuna həsr olunub. Paneldə 2040-cı ilədək daha inteqrasiya olunmuş iqtisadi məkanın yaradılması, ticarət və gömrük sistemlərinin uyğunlaşdırılması, iqtisadi maneələrin azaldılması və innovasiyayönümlü iqtisadi inkişaf məsələləri müzakirə edilib. Türk İnvestisiya Fondunun rolu, həmçinin rəqəmsal ticarət, elektron gömrük, fintech, insan kapitalı və əmək mobilliyi məsələləri nəzərdən keçirilib.

Konfransın üçüncü paneli "Davamlı inkişaf üçün innovasiya: siyasət çərçivələri və iqtisadi transformasiya" mövzusuna həsr olunub. Paneldə vahid rəqəmsal ticarət ekosistemi, süni intellekt, rəqəmsal infrastruktur və məlumatların idarə olunması məsələləri müzakirə edilib. Eyni zamanda, startaplar, tədqiqat əməkdaşlığı, texnoparklar, birgə innovasiya fondları və insan kapitalına investisiyaların artırılması ilə bağlı fikir mübadiləsi aparılıb.

Panel sessiyalarında 10-a yaxın ölkədən 30-dan artıq beyin mərkəzinin rəhbəri, tanınmış alimlər və beynəlxalq ekspertlər çıxış ediblər.

*Nardar BAYRAMLI*

# QHPŞ və Pan-Afrika Parlamenti arasında Anlaşma Memorandumu...

## Memorandum iki parlament platforması arasında əməkdaşlığı inkişaf etdirəcək

Azərbaycan beynəlxalq platformalarda fəal təmsil olunur. Ölkəmizin xarici siyasət kursunda parlament diplomatiyasının da mühüm rolu var. Ümumən, müasir beynəlxalq münasibətlər sistemində parlament diplomatiyasının artan nüfuzu artıq reallıqdır. Məhz bu tendensiyanın nəticəsidir ki, son illərdə qanunverici orqan vasitəsilə atılan addımlar Azərbaycanın dövlət strategiyasının mühüm komponentinə çevrilib. Parlament diplomatiyasının məqsədi dövlətlər və regionlar arasında əlaqələrin və inteqrasiyanın dərinləşdirilməsinə nail olmaqdır.



**Milli Məclisin beynəlxalq əlaqələri genişlənir**

Bütün bunların nəticəsidir ki, Milli Məclisin beynəlxalq əlaqələri genişlənir. Yeri gəlmişkən, sentyabrın 16-da Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Pan-Afrika Parlamentinin Prezidenti Fatih Boutbiqin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Pan-Afrika Parlamentinin Afrika qitəsində parlamentlərarası dialoqun təşviqində, üzv dövlətlər arasında əməkdaşlığın genişləndirilməsində və ümumi inkişaf məqsədlərinin irəli aparılmasında mühüm rol oynadığı qeyd olunub.

Spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, Azərbaycan Milli Məclisi Afrika ölkələrinin parlamentləri ilə münasibətlərin inkişafına xüsusi önəm verir. Bu baxımdan, parlament diplomatiyasının inkişafı, parlamentlər arasında əlaqələrin daha da genişləndirilməsi, siyasi dialoqun möhkəmləndirilməsi mühüm əhəmiyyət daşıyır. O, Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin (QHPŞ) və Qoşulmama Hərəkatı Gənclər Təşkilatının (GHGT) fəaliyyəti, Azərbaycanın QHPŞ-yə sədrliyi dövründə görülmüş işlər, ölkəmizin irəli sürdüyü təşəbbüslər barədə məlumat verib. Spiker bundan sonra Pan-Afrika Parlamentinin Afrika dövlətlərinin parlamentləri ilə əlaqələrimizin inkişaf etdirilməsi üçün daha bir uğurlu platforma olacağına əminliyini ifadə edib.

Qonağın Pan-Afrika Parlamentini təmsil etməklə yanaşı, eyni zamanda, Əlcəzair parlamentinin üzvü olduğunu bildirən spiker Sahibə Qafarova, ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif səviyyələrdə məmnunluq hissi doğurduğunu qeyd edib.

Pan-Afrika Parlamentinin Prezidenti Fatih Boutbiq isə bu vəzifəyə seçiləndən sonra Afrika hüdudlarından kənarda səfər etdiyi ilk ölkənin Azərbaycan olduğunu vurğulayıb. Parlament diplomatiyasının artan rolundan danışan qonaq, rəhbərlik etdiyi təşkilatın ölkələrin parlamentləri, həmçinin beynəlxalq parlament təşkilatları ilə əməkdaşlığa hazır olduğunu qeyd edib.

Söhbət zamanı Pan-Afrika Parlamenti ilə Azərbaycan Milli Məclisi, habelə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi arasında əməkdaşlığın inkişafı və digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

Görüşdən sonra Pan-Afrika Parlamenti ilə QHPŞ arasında Anlaşma Memorandumu imzalanıb. Sənədi Milli Məclisin və QHPŞ-nin sədri Sahibə Qafarova və Pan-Afrika Parlamentinin Prezidenti Fatih Boutbiq imzalayıblar. Spiker Sahibə Qafarova bu sənədin iki parlament platforması arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi baxımından mühüm addım olduğunu diqqətə çatdırıb. Fatih Boutbiq isə Pan-Afrika Parlamenti ilə QHPŞ arasında imzalanan Memorandumun iki parlament təsisatı arasında əməkdaşlığın yeni mərhələyə yüksəlməsinə və gələcək fəaliyyət üçün möhkəm zəmin yaradılmasına xidmət edəcəyini deyib.

**Pan-Afrika Parlamenti Afrika İttifaqının qanunverici orqanıdır**

Qeyd edək ki, Pan-Afrika Parlamenti Afrika İttifaqının qanunverici orqanıdır. Qurum ilk iclasını 2004-cü ilin mart ayında keçirib. Parlament nəzarət funksiyasını həyata keçirir, həmçinin məsləhət və konsultasiya səlahiyyətlərinə malikdir. Pan-Afrika Parlamentinin qərargahı əvvəlcə Efiopiyanın Əddis-Əbəbə şəhərində yerləşirdi, lakin sonradan Cənubi Afrikanın Midrand şəhərinə köçürülüb. Təşkilatın təsis edilməsində məqsəd bütün Afrika ölkələrini təmsil edən parlamentarilərin bir araya gəlib müzakirələr apara biləcəyi və bütün qitəyə təsir edən məsələlərlə bağlı siyasət müəyyənləşdirəcəyi bir platforma yaratmaqdır. Qurum üzvlərin ümumi seçki hüququ əsasında seçilən və tam qanunvericilik səlahiyyətlərinə malik bir təsisat olmağı hədəfləyib.

Pan-Afrika Parlamenti, onu təsis edən Protokolu ratifikasiya etmiş hər bir üzv dövlətdən (həmin dövləti təmsil edən ən azı bir qadın da daxil olmaqla) maksimum beş üzvdən ibarətdir. Bu üzvlər müvafiq üzv dövlət və onun daxili qanunvericilik orqanı tərəfindən seçilir.

Ümumiyyətlə, Pan-Afrika Parlamenti üç əsas orqandan ibarətdir: plenar iclas, büro və katiblik. Həmçinin, səlahiyyət və funksiyaları PAP-ın Daxili Nizamnaməsində müəyyən edilmiş on daimi komitə və bir xüsusi təyinatlı komitə mövcuddur. Plenar iclas parlamentin əsas qanunvericilik və müzakirə bölməsidir. Burada nümayəndələr Afrika ilə bağlı məsələləri və mümkün həll yollarını müzakirə etmək üçün mütəmadi olaraq bir araya gəlirlər. Büro isə parlamentin rəhbər orqanı olub, bir sədr və dörd sədr müavindən ibarətdir. Onların hamısı plenar iclasda nümayəndələr tərəfindən seçilir. Parlamentin digər orqanı olan Katibliyin də müəyyən funksiyası var. Bu orqana katib və katib müavinləri rəhbərlik edir. Bu strukturlar birlikdə Pan-Afrika Parlamentinin fəaliyyətini tənzimləyən məqsədləri müəyyənləşdirir, qərarlar verir və həyata keçirir.

*N.BAYRAMLI*

# İqtisadi inkişafın maliyyə təminatı

## Gələn il dövlət büdcəsinin xərcləri 42 milyard manatı ötəcək

Maliyyə Nazirliyi (MN) "2027-ci ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair Açıqlama" sənədini ictimaiyyətə təqdim edib. Sənəd növbəti il və ortamüddətli dövr üzrə makroiqtisadi proqnozları, büdcə siyasətinin əsas istiqamət və hədəflərini, prioritet xərc istiqamətlərini, icmal və dövlət büdcələrinin layihələrinin ilkin parametrlərinə dair Maliyyə Nazirliyinin baxışlarını əks etdirir.

"2027-ci ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair Açıqlama" sənədi dövlət maliyyəsinin idarəolunması sahəsində bir sıra fiskal diaqnostika alətləri, həmçinin Açıq Büdcə Sorğusu metodologiyasına uyğun olaraq, icmal və dövlət büdcəsinin əsas göstəricilərinin ictimaiyyətə mütərəqqi praktikaya uyğun açıqlanması, bu sahədə şəffaflıq prinsiplərinin təmin olunması məqsədi ilə hazırlanıb. Layihə növbəti il və ortamüddətli dövr üzrə makroiqtisadi proqnozları, büdcə, o cümlədən gəlir və xərc siyasətinin əsas istiqamətlərini, büdcə qaydasına əsaslanan makro-fiskal çərçivəyə, qəbul edilmiş strateji sənədlərə və hökumət tərəfindən müəyyən edilmiş prioritetlərə uyğun olaraq tərtib edilib.

**Büdcə gəlirləri 39 milyard manatdan çox proqnozlaşdırılır**

2027-ci ildə dövlət büdcəsinin gəlirləri 39 milyard 234 milyon manat proqnozlaşdırılır ki, bu da 2026-cı ilin təsdiq olunmuş göstəricisi ilə müqayisədə 625 milyon manat və yaxud 1,6 faiz çoxdur. 2027-ci ildə xam neftin bir barelinin orta illik satış qiyməti 65 dollar səviyyəsində götürülməklə dövlət büdcəsinin gəlirlərində ÜDM-in 27,8 faizi həcmində, yəni 39 milyard 234 milyon manat nəzərdə tutulur. Gəlirlərin 39,5 faizi və ya 15 milyard 480 milyon manatı neft-qaz sektorunun, 60,5 faizi və ya 23 milyard 754 milyon manatı qeyri-neft-qaz sektorunun payına düşür.

Büdcə gəlirlərinin əsas istiqamətlə ölkənin iqtisadi inkişafını sürətləndirmək, rəqabət qabiliyyətini gücləndirmək, investisiya mühitini daha cəlbedici etmək məqsədi daşıyır. Bu tədbirlər çərçivəsində vergi borclarının idarə olunması sahəsində daha çevik yanaşmaların tətbiqi və könüllü ödəniş intizamının gücləndirilməsi, sahibkarlığın dəstəklənməsi və strateji sahələrə investisiyaların təşviqi və vergi və gömrük inzibatçılığı mexanizmlərinin təkmilləşdirilməsi kimi addımlar planlaşdırılır.

**Xərclərin əsas prioritet istiqamətləri**

Növbəti ildə dövlət büdcəsinin xərcləri 2026-cı ilin təsdiq olunmuş göstəricisi ilə müqayisədə 696,4 milyon manat və ya 1,7 faiz artım ilə 42 milyard 400 milyon manat proqnozlaşdırılır.

Dövlət büdcəsinin əsas xərc istiqamətləri isə büdcə siyasəti qarşısında dayanan çağırışlar və sosial-iqtisadi hədəflər əsas götürülməklə ortamüddətli resurs zərfinə uyğun olaraq milli xərc prioritetləri əsasında müəyyənləşdirilib. Belə ki, 2027-2030-cu illərdə dövlət büdcəsi xərcləri dövlətin əsas funksiyalarının maliyyələşdirilməsinin təmin edilməsinə yönəldiləcək.

Ümumilikdə, ortamüddətli dövrdə dövlət büdcəsinin əsas xərc istiqamətləri dayanıqlı və yüksək iqtisadi artımın dəstəklənməsi, o cümlədən rəqəmsal inkişaf yönümlü və innovasiya tutumlu sahələrə investisiyaların artırılması, kənd təsərrüfatı məhsullarının istehsalının yüksəldilməsi, sahibkarlığın inkişafı və yerli istehsalın stimullaşdırılması, biznes-investisiya mühitinin yaxşılaşdırılması ilə bağlı olacaq.

Büdcədə ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, o cümlədən sərhədlərin bərpası və toxunulmazlığının təmin edilməsi, ordunun maddi-texniki təchizatının müasirləşdirilməsi, ərazilərin minalardan təmizlənməsi, hərbçilərin sosial təminatının və xidmət şəraitinin yaxşılaşdırılması istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi əsas milli xərc hədəfi kimi nəzərdə tutulub. Həmçinin, işğaldan azad olunmuş ərazilərdə yenidənqurma, bərpa və məskunlaşdırma tədbirlərinin davam etdirilməsi başlıca xərc prioritetidir. Rəqəmsal inkişaf sahəsində müəyyən edilən prioritetlərin həyata keçirilməsi, eləcə də süni intellekt texnologiyalarının tətbiqi, data mərkəzlərinin yaradılması və rəqəmsal transformasiya proseslərinin sürətləndirilməsi, əhalinin sosial müdafiəsi və rifahı, xüsusilə həssas təbəqələrin sosial təminatının daha da gücləndirilməsi də xərc siyasətində mühüm yer tutur. Bu xərc maddəsinə uyğun olaraq müdafiə olunan xərclərin, o cümlədən əməyin ödənişi, pensiyalar, müavinətlər, təqaüdlər və digər sosial ödənişlər ilə bağlı xərclərin maliyyə təminatı xüsusi olaraq diqqətdə saxlanılacaq.

Dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilməsi nəzərdə tutulmuş dövlət proqram və tədbirlərin maliyyə təminatı, təmiz ətraf mühit və eləcə də "yaşıl enerji" mənbələrinin genişləndirilməsi də xərclərdə əsas yerlərdən birini tutur.

**Sosial təminat xərcləri 5 milyard manata yaxınlaşıb**

2027-ci ildə dövlət büdcəsinin kəsiri 3 milyard 166 milyon manat proqnozlaşdırılır ki, onun da 2 milyard 751 milyon manatı borclanma, 275 milyon manatı vahid xəzinə hesabının qalığı,140 milyon manatı isə özəlləşmədən daxilolmalar hesabına maliyyələşdiriləcək.

Funksional təsnifat üzrə 2027-ci ildə ümumi dövlət xidmətləri üzrə xərclərə 5 milyard 506,3 milyon manat, müdafiə və milli təhlükəsizlik üzrə xərclərə 8 milyard 816,4milyon manat, məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq üzrə xərclərə 3 milyard 433,6 milyon manat, təhsil xərclərinə 5 milyard 98,2 milyon manat, sosial müdafiə və sosial təminat üzrə xərclərə 4 milyard 916 milyon manat vəsait ayrılması nəzərdə tutulub. Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət xərclərinə isə 645,2 milyon manat, mənzil və kommunal təsərrüfatı üzrə xərclərə 335 milyon manat, kənd təsərrüfatı üzrə xərclərə 1 milyard 379,5 milyon manat, ətraf mühitin mühafizəsinə 438,7 milyon manat, iqtisadi fəaliyyət xərclərinə isə 8 milyard 891 milyon manat maliyyə ayrılması proqnozlaşdırılıb.

**İcmal büdcənin gəlir və xərcləri də artıb**

2027-ci ildə icmal büdcənin gəlirləri 47 milyard 608,8 milyon manat səviyyəsində proqnozlaşdırılıb ki, bu da 2026-cı ilin təsdiq olunmuş göstəricisinə nəzərən 2 milyard 639,5 milyon manat və ya 5,9 faiz artım deməkdir. İcmal büdcə xərcləri isə növbəti ildə 50 milyard 386,7 milyon manat proqnozlaşdırılır ki, bu da 2026-cı ilin təsdiq olunmuş göstəricisi ilə müqayisədə 1 milyard 547,4 milyon manat və ya 3,2 faiz çoxdur.

2027-ci il üzrə icmal büdcədə 2 milyard 777,9 milyon manat büdcə kəsri gözlənilir.

**Ortamüddətli dövrdə fiskal dayanıqlıq tədbirləri**

Ortamüddətli dövrdə makroiqtisadi dayanıqlığı, maliyyə və borc intizamını, Dövlət Neft Fondunun aktivlərinin qorunması, xərc səmərəliliyinin yüksəldilməsi çərçivəsində tətbirlər davam etdiriləcək. İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbətinin mərhələli şəkildə azaldılaraq 2029-cu ilin sonuna 13 faizə qədər endirilməsi nəzərdə tutulur ki, bu da uzunmüddətli fiskal dayanıqlığı təmin edən səviyyədir.

2027-ci il ərzində dövlət borclanmasının daxili maliyyə bazarlarında emissiya ediləcək dövlət qiymətli kağızları ilə yanaşı, beynəlxalq maliyyə qurumlarının vəsaiti hesabına layihə maliyyələşdirilməsi çərçivəsində həyata keçirilməsi planlaşdırılır.Bu kontekstdə su və nəqliyyat sektorları üzrə təsdiq edilmiş dövlət proqramlarının icrası istiqamətində müəyyən olunmuş bir sıra prioritet layihələrin maliyyələşdirilməsi üçün növbəti dövr ərzində beynəlxalq maliyyə institutlarından kredit vəsaitlərinin cəlb edilməsi nəzərdə tutulur.

Qeyd edək ki, büdcə prosesinin növbəti mərhələlərində - Nazirlər Kabinetində və Milli Məclisdə müzakirələr zamanı 2027-ci il üçün dövlət büdcəsi haqqında qanun layihəsinin parametrlərində dəyişikliklərin edilməsi istisna edilmir.

*E.CƏFƏRLİ*

Qrafik 8. 2026 və 2027-ci illərdə neft-qaz və qeyri-neft-qaz sektoru üzrə daxilolmaların dövlət büdcəsində xüsusi çəkisi (faizlə)




Qrafik 9. Dövlət büdcəsi xərclərinin strukturu (milyon manatla, faizlə)




Qrafik 10. 2027-ci ildə dövlət büdcəsi xərclərinin funksional təsnifat üzrə proqnoz göstəriciləri (milyon manat)



# Zəfər yolu yeni qələbələr vəd edir







Sentyabrın 17-də Yeni Azərbaycan Partiyası (YAP) Suraxanı rayon təşkilatının XI konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov bildirib ki, Yeni Azərbaycan Partiyası Azərbaycan dövlətçiliyinin ən ağır sınaqlar qarşısında qaldığı bir zamanda xalqın istək və arzularının nəticəsi olaraq tarixi zərurətdən yaranıb. YAP bu günə qədər şərəfli yol keçərək ölkəmizin ən güclü siyasi qüvvəsinə çevrilib. O qeyd edib ki, rayon təşkilatı fəaliyyətini partiyanın Proqram və Nizamnaməsinin tələblərinə, Mərkəzi Aparatın tapşırıq və tövsiyələrinə uyğun quraraq rayonun ictimai-siyasi həyatında fəal iştirak edib.

Suraxanı Rayon İcra Hakimiyyətinin Başçısı Adil Əliyev vurğulayıb ki, Ulu Öndər Heydər Əliyevin əbədiyaşar ideyaları əsasında formalaşan, tarixin bütün sınaqlarından uğurla çıxmış və dövlətçilik ənənələrinin inkişafına misilsiz töhfələr vermiş Yeni Azərbaycan Partiyasının sıraları Prezident İlham Əliyevin siyasi iradəsi və müdrikliyi sayəsində gündən-günə genişlənməkdədir. Müzəffər Ali Baş Komandanımızın liderliyi, xalqımızın birliyi, ordumuzun rəşadəti sayəsində əldə edilən şanlı Zəfər xalqımızın yaddaşında əbədi yaşayacaq və gələcək nəsillər üçün də qürur mənbəyi olacaq. Ərazi bütövlüyü və suverenliyini tam bərpa etmiş Azərbaycan bu gün azad edilmiş ərazilərində genişmiqyaslı bərpa və quruculuq işlərini sürətlə davam etdirir, şəhər və kəndləri yenidən qurur. Böyük Qayıdış çərçivəsində keçmiş məcburi köçkünlər doğma yurdlarına geri dönür.

Milli Məclisin deputatı Sevinc Fətəliyeva Azərbaycanın son illərdə əldə etdiyi böyük uğurlara, tarixi Zəfərə və ölkəmizin beynəlxalq nüfuzunun artmasına diqqət çəkib. Vurğulayıb ki, Azərbaycan təkcə regionda deyil, ümumilikdə dünyada çəkisi və rolu artan, bütün sahələrdə sürətli tərəqqiyə nail olmuş, öz milli maraqlarının müdafiəsində və tarixi ədalətin bərpa edilməsində uğur qazanmış dövlətdir. Uzun illərdir ki, beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınan Azərbaycan bu imicini getdikcə daha da möhkəmləndirir, qlobal proseslərdə söz sahibinə çevrilir.

YAP Mərkəzi Aparatı Təşkilat şöbəsinin müdir müavini Rafael Gülməmmədov Yeni Azərbaycan Partiyası ideoloji fəaliyyət istiqamətində Ümummilli Lider Heydər Əliyevin siyasi irsinin, azərbaycançılıq məfkurəsinin, milli dövlətçilik dəyərlərinin, eləcə də Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin həyata keçirdiyi siyasətin təbliğinə xüsusi diqqət yetirir. YAP Suraxanı rayon təşkilatı bu prosesdə fəallığı ilə seçilir.

Sonra 1 saylı Birləşmiş Şəhər Xəstəxanasının baş həkim səlahiyyətlərinin icraçısı, ərazi partiya təşkilatının sədri Arzu Hacı-zadə, 84 nömrəli tam orta ümumtəhsil məktəbinin direktor müavini, ərazi partiya təşkilat sədrinin müavini Fidan Həbibova, Vətən Müharibəsi şəhidi Ruhid İslamlının atası, partiya fəalı Uğur İslamlı, Vətən Müharibəsi şəhidi Osman Manafovun həyat yoldaşı, partiya fəalı Aysel Manafova çıxış ediblər.

Konfransda YAP Suraxanı rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# YAP milli maraqları daim üstün tutur







Sentyabrın 17-də Yeni Azərbaycan Partiyası (YAP) Saatlı rayon təşkilatının X konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Saatlı rayon təşkilatının sədri Elşən Əzizov hesabat məruzəsi ilə çıxış edib. O, Yeni Azərbaycan Partiyasının ölkənin ictimai-siyasi həyatında fəal rol oynadığını, dövlətçilik ənənələrinin möhkəmləndirilməsinə mühüm töhfələr verdiyini vurğulayıb. O, Saatlı rayon təşkilatının fəaliyyətini YAP-ın Proqram və Nizamnaməsinin tələblərinə, Mərkəzi Aparatın tapşırıq və tövsiyələrinə uyğun qurduğunu diqqətə çatdırıb.

Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Elmir Bağırov müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasi kursun bu gün Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyib. O bildirib ki, məhz uğurlu strategiyanın nəticəsi olaraq Azərbaycanın iqtisadi və siyasi qüdrəti artıb, beynəlxalq müstəvidə mövqeləri möhkəmlənib.

Milli Məclisin deputatı Əziz Ələkbərli YAP-ın daim xalqın mənafeyindən çıxış etdiyini, siyasi sistemin aparıcı qüvvəsi kimi ölkəmizə mühüm nailiyyətlər qazandırdığını deyib. O qeyd edib ki, partiya Azərbaycan dövlətçiliyinin inkişafı və xalqımızın rifahı naminə yorulmadan fəaliyyət göstərir.

Milli Məclisin deputatı Səyyad Aran partiyanın yaranma tarixindən, keçdiyi inkişaf yolundan, cəmiyyətdə artan rolundan geniş bəhs edib. O, Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu, zəngin siyasi və dövlətçilik təcrübəsinə söykənən Yeni Azərbaycan Partiyasının ölkədə ən güclü, monolit siyasi təşkilat olduğunu deyib.

YAP Saatlı rayon təşkilatının sabiq sədri, partiya veteranı Lütvəli Şıxəliyev partiyanın yerli təşkilatlarının dövlət siyasətinin təbliğində mühüm rol oynadığını deyib. Həmçinin qeyd olunub ki, Yeni Azərbaycan Partiyası milli maraqları daim üstün tutaraq ölkəmizin inkişafında müstəsna rol oynayır.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Fəsli Nəbiyev Yeni Azərbaycan Partiyasının bundan sonra da Azərbaycanın inkişafına və qarşıya qoyulan yeni hədəflərin reallaşdırılmasına layiqli töhfələr verəcəklərinə əminliyini ifadə edib.

Konfransda YAP Saatlı rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# YAP İsmayıllı rayon təşkilatının XI konfransı keçirilib







Sentyabrın 17-də Yeni Azərbaycan Partiyası (YAP) İsmayıllı rayon təşkilatının XI konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP İsmayıllı rayon təşkilatının sədri Zaur Muradov hesabat məruzəsi ilə çıxış edib. O, Azərbaycanın davamlı inkişafında Yeni Azərbaycan Partiyasının müstəsna rolundan danışıb. 2021-ci il martın 5-də keçirilən VII qurultayın partiyanın müasir çağırışlara uyğun olaraq fəaliyyətinin gücləndirilməsi baxımından mühüm mərhələ olduğunu deyən Zaur Muradov İsmayıllı rayon təşkilatının fəaliyyətinin də məqsədyönlü şəkildə təşkil edildiyini vurğulayıb.

Çıxış edən İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırov Yeni Azərbaycan Partiyasının daim xalqa xidmət prinsipini əsas götürdüyünü, əməli fəaliyyəti ilə böyük rəğbət qazandığını deyib. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın 44 günlük Vətən müharibəsində möhtəşəm qələbə qazanaraq tarixi ədalətin və ərazi bütövlüyünün bərpasına nail olmasından ətraflı bəhs edib.

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Vüqar İskəndərov Ulu Öndərin Azərbaycan xalqına siyasi mirası olan Yeni Azərbaycan Partiyasının bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük nailiyyətlər qazandığını, şanlı tarix yazdığını deyib. O qeyd edib ki, bu gün Azərbaycan öz ərazi bütövlüyü və suverenliyini təmin etmiş güclü dövlət kimi çıxış edir.

İsmayıllı Rayon Mərkəzi Xəstəxanası ərazi partiya təşkilatının sədri Vidadi Rəhimov, İsmayıllı rayon Uşaq-Gənclər İnkişaf Mərkəzi ərazi partiya təşkilatının sədri Xuraman Qurbanova, Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı İsmayıllı Rayon Komitəsinin sədri Hafiz Kərimov və İvanovka kənd ərazi partiya təşkilatının sədri Oleq Radayev çıxış edərək YAP-ın bu gün siyasi sistemin aparıcı qüvvəsi kimi ölkəmizə mühüm nailiyyətlər qazandırdığını deyiblər.

Çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Xaqani Tağıyev bildirib ki, YAP İsmayıllı rayon təşkilatı qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirib. O, Yeni Azərbaycan Partiyasının qazandığı uğurlarla yanaşı, qarşıda dayanan vəzifələrdən də ətraflı bəhs edib.

Konfransda YAP İsmayıllı rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII Qurultayına nümayəndələr seçilib.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

# Xalq-iqtidar birliyinin əsasında qarşılıqlı inam dayanır







Sentyabrın 17-də Yeni Azərbaycan Partiyası (YAP) Lerik rayon təşkilatının XI konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Lerik rayon təşkilatının sədri Malik Mirzəyev hesabat məruzəsi ilə çıxış edib. O, Azərbaycanın əldə etdiyi uğurlardan, Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli inkişaf yolundan bəhs edib. Ümummilli Lider Heydər Əliyevin "YAP dünənin, bu günün və gələcəyin partiyasıdır" fikrinə istinad edən Malik Mirzəyev partiyanın nəinki ölkəmizdə, həm də regionda ən güclü siyasi təşkilat olduğunu deyib.

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasov bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Azərbaycan böyük inkişaf yolu keçib, yeni reallıqlar yaranıb, ölkəmizin qarşısında yeni perspektivlər açılıb. Azərbaycanın uğurlarından geniş bəhs edən Əkbər Abbasov ölkəmizin ərazi bütövlüyü və suverenliyinin təmin olunmasını müasir tariximizin ən mühüm tarixi nailiyyəti kimi qiymətləndirib.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Rəşad Mahmudov Yeni Azərbaycan Partiyasının xalqın inam və etimadını layiqincə doğrultduğunu, Azərbaycanın inkişafına müstəsna töhfələr verdiyini deyib. O, əminliklə ifadə edib ki, siyasi sistemin aparıcı qüvvəsi olan YAP ölkəmizə bundan sonra da mühüm nailiyyətlər qazandırmağı əzmindədir.

Rayon Ağsaqqallar Şurasının sədri Elxan Qənbərov, Lerik şəhər ərazi partiya təşkilatının sədri Gültəkin Şıxəliyeva, rayon peşə məktəbinin müəllimi, Birinci Qarabağ müharibəsi veteranı, şəhid ailəsi üzvü Namiq Bağışov çıxışlarında Yeni Azərbaycan Partiyasının əməli fəaliyyəti ilə xalqın böyük rəğbətini qazandığını deyiblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Əli Axundov Yeni Azərbaycan Partiyasının VII qurultayından sonra partiya işinin daha səmərəli qurulması istiqamətində görülən işlərdən danışıb.

Konfransda YAP Lerik rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# YAP ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayır







Sentyabrın 17-də Yeni Azərbaycan Partiyası (YAP) Kəlbəcər rayon təşkilatının X konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Kəlbəcər rayon təşkilatının sədri Həbib Misirov hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, rayon təşkilatı hesabat dövründə qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi istiqamətində məqsədyönlü fəaliyyət göstərib. Partiya üzvlərinin ictimai-siyasi fəallığının artırılması, ideoloji işin gücləndirilməsi diqqət mərkəzində saxlanılan əsas məsələlərdən olub.

Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı Azər Qocayev bildirib ki, ölkəmizin bütün bölgələrində olduğu kimi, Kəlbəcər rayonunda da genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir. Azərbaycanın qazandığı tarixi qələbələr nəticəsində uzun illər yurd həsrəti ilə yaşayan kəlbəcərlilər də doğma torpaqlarına qayıdırlar.

Milli Məclisin deputatı Kamran Bayramov partiyanın ölkənin ictimai-siyasi həyatında aparıcı rolundan danışıb. Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kurs Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, Azərbaycana möhtəşəm nailiyyətlər qazandırır.

YAP İdarə Heyətinin üzvü Bayram Aslanov Ümummilli Lider Heydər Əliyevin dövlətçilik irsindən və Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı tarixi nailiyyətlərdən danışıb. Onun sözlərinə görə, ölkəmizin ərazi bütövlüyünü və suverenliyinin bərpası dövlətçilik tariximizin ən möhtəşəm uğurlarındandır.

Partiya veteranı Əli Bağırov və partiya fəalı Rəşanə Mamedova hesabat məruzəsi ilə bağlı fikirlərini bildiriblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Rəşad Abbaszadə rayon təşkilatının müasir çağırışlara uyğun olaraq fəaliyyət göstərdiyini deyib, qarşıda duran vəzifələrdən bəhs edib.

Konfransda YAP Kəlbəcər rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş hesab edilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Tədbirin sonunda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# ABŞ Nümayəndələr Palatası Rusiyaya qarşı sanksiyalar haqqında qanun layihəsini qəbul edib



ABŞ Nümayəndələr Palatası Ağ Evə Rusiyaya qarşı əlavə sanksiyalar tətbiq etməyə imkan verən qanun layihəsini təsdiqləyib.

ABC News telekanalının xəbərinə görə, təşəbbüsü Konqresin aşağı palatasının 262 üzvü dəstəkləyib, 159 qanunverici isə əleyhinə çıxış edib.

Senatda səsvermə avqustun 7-də keçirilib. O zaman 100 senatordan 86-sı qanun layihəsini dəstəkləyib (11 nəfər əleyhinə səs verib).

Təsdiqlənmiş sənəd imzalanmaq üçün ABŞ Prezidenti Donald Trampa göndəriləcək.

Mərhum respublikaçı senator Lindsi Qrem tərəfindən hazırlanmış qanun layihəsi ABŞ Prezidentinə Rusiya məmurlarına, banklarına və "kölgə donanmasına" qarşı birbaşa sanksiyalar tətbiq etməyə imkan verir. Bundan əlavə, ABŞ Rusiya enerji resurslarının əsas alıcılarına qarşı 100 faizlik rüsumlar tətbiq edə biləcək.

# "Politico": Fon der Lyayenin təhlükəsizlik təşəbbüsləri NATO-da narahatlıq doğurur



Avropa Komissiyasının (AK) sədri Ursula fon der Lyayenin təhlükəsizlik sahəsindəki təşəbbüsləri NATO-da narahatlıq doğurur.

Bu barədə "Politico" alyansın diplomatlarına istinadən yazır.

Məqalədə qeyd olunur ki, "müttəfiqlər təkliflər barədə Avropa İttifaqı (Aİ) tərəfindən əvvəlcədən rəsmi olaraq məlumatlandırılmayıblar". Alyansda hesab edirlər ki, Ursula fon der Lyayenin ideyaları "özündə təkrarlanma riski daşıyır".

Bundan əvvəl fon der Lyayen təhlükəsizlik məsələləri üzrə xüsusi şura, eləcə də Aİnin yeni müdafiə strategiyasını formalaşdırmaq niyyətində olduğunu bildirib.

Xatırladaq ki, NATO-nun Baş katibi Mark Rütte və Avropa Komissiyasının rəhbəri vurğulayıblar ki, Avropa ölkələrinin öz təhlükəsizliklərinə görə məsuliyyəti ABŞ-a həvalə edə bildikləri dövr başa çatıb. Onların sözlərinə görə, Avropa alyansda iştirakı çərçivəsində Birləşmiş Ştatlara güclü şəkildə arxalanmağa başlayıb.

# Ağ Ev: FED-in faiz dərəcələrini artırmaq qərarı təəssüf doğurur



ABŞ Federal Ehtiyat Sisteminin (FED) faiz dərəcələrini artırmaq qərarı təəssüf doğurur və əsassızdır.

AZƏRTAC xəbər verir ki, bu sözləri Ağ Evin sözçüsü Kuş Desai "Fox News"a açıqlamasında deyib.

O bildirib ki, Prezident Donald Tramp faiz dərəcələrinin hara yönəldilməsini istədiyini açıq şəkildə bəyan edib: "FED administrasiyanın faiz dərəcələrini artırmaqla bağlı uğursuz qərarı heç bir inandırıcı iqtisadi arqumentə söykənmir".

Qeyd edək ki, FED uçot dərəcəsini 0,25 bazis bəndi artıraraq 3,75-4 faiz diapazonuna çatdırıb. Hazırda ölkədə inflyasiya 3,4 faizdir.

Donald Tramp Federal Ehtiyat Sisteminin keçmiş sədri Cerom Paueli dəfələrlə sərt tənqid edib. ABŞ lideri vurğulayıb ki, tənzimləyici orqan əsas faiz dərəcəsini mərhələli şəkildə azaltmalıdır. O, Pauellin yerinə namizədliyi Senat tərəfindən təsdiqlənən Kevin Uorşu məsləhət görüb. Tramp Uorşun faiz dərəcəsini aşağı salacağına əmin idi.

## Təhlükəsizlik uğrunda dünya nələri itirdi?

# 11 sentyabrın kölgəsi



2001-ci il sentyabrın 11-də ABŞ-da törədilmiş terror hücumlarından iyirmi beş il keçdi. Nyu-Yorkdakı Dünya Ticarət Mərkəzinin binalarına və Pentaqona yönələn hücumlar minlərlə insanın həyatına son qoydu, ailələri dağıtdı, bütöv bir ölkədə və dünyada təhlükəsizlik hissini sarsıtdı. Lakin 11 sentyabr yalnız bir günün faciəsi deyildi. O, beynəlxalq münasibətlər sistemində uzun illər davam edən yeni siyasi və hüquqi mərhələnin başlanğıcı oldu.

Bu hadisədən sonra dünya dəyişdi. Sərhədlərdən keçid, hava limanında yoxlama, şəxsi məlumatların qorunması, miqrasiya siyasəti, müharibə anlayışı, dövlətin nə qədər güc tətbiq edə biləcəyi kimi məsələlər başqa məna qazandı. Terrorla mübarizə zərurəti, demək olar, bütün dövlətlər tərəfindən qəbul edildi. Amma əsas məsələ bu idi və bu gün də aktual olaraq qalır: təhlükəsizlik naminə hansı həddə qədər getmək olar?

Soyuq müharibənin bitməsindən sonrakı dövrdə beynəlxalq aləmdə müəyyən nikbinlik vardı. Sovet İttifaqının dağılmasından sonra böyük ideoloji qarşıdurmanın zəiflədiyi, bazar iqtisadiyyatının, qarşılıqlı ticarətin və qloballaşmanın dövlətləri daha da yaxınlaşdıracağı düşünülürdü. BMT-nin rolunun artacağı, regional inteqrasiyanın dərinləşəcəyi, münaqişələrin diplomatik vasitələrlə həll ediləcəyi barədə gözləntilər geniş yayılmışdı. 11 sentyabr bu təsəvvürü dağıtdı. Dünyanın ən güclü dövlətinin öz ərazisində belə böyük hücuma məruz qalması göstərdi ki, təhlükə artıq yalnız başqa dövlətin ordusundan və ya nüvə silahından gəlmir; kiçik qruplar, transmilli şəbəkələr, gizli maliyyə kanalları və ideoloji təsir vasitələri qlobal təhlükəsizliyə ciddi zərbə vura bilər.

Hadisələrdən sonra ABŞ terrorla mübarizəni milli siyasətinin əsas istiqamətinə çevirdi. NATO tarixində ilk dəfə olaraq Şimali Atlantika Müqaviləsinin 5-ci maddəsi tətbiq edildi. Bu maddəyə əsasən, bir üzv dövlətə edilən hücum bütün alyansa hücum kimi qəbul olunur. BMT Təhlükəsizlik Şurası da 1368 və 1373 saylı qətnamələrlə terrorizmə qarşı beynəlxalq əməkdaşlığın gücləndirilməsinə çağırdı. Bu qərarlar ilk mərhələdə geniş beynəlxalq həmrəylik yaratdı. Əfqanıstanda "Əl-Qaidə" rəhbərliyinə və onu himayə edən "Taliban" rejiminə qarşı əməliyyatlar bir çox dövlətlər tərəfindən terror təhlükəsinə cavab kimi qəbul olundu. Lakin sonrakı proseslər göstərdi ki, terrorizmə qarşı mübarizə ilə uzunmüddətli hərbi-siyasi layihələr arasındakı sərhəd getdikcə bulanıqlaşdı. 2003-cü ildə İraqa müdaxilə bu dönüşün ən mühüm nümunəsi oldu. İraqın 11 sentyabr hücumları ilə birbaşa əlaqəsi sübut edilməmişdi. Kütləvi qırğın silahları ilə bağlı irəli sürülən ittihamlar da sonradan təsdiqini tapmadı. Buna baxmayaraq hərbi əməliyyat həyata keçirildi, hakimiyyət dəyişdirildi, dövlət idarəetməsi dağıldı, cəmiyyətin müxtəlif dini və etnik qrupları arasında ziddiyyətlər kəskinləşdi.

İraq nümunəsi bir həqiqəti açıq göstərdi: hərbi üstünlük siyasi sabitlik demək deyil. Ordu paytaxta daxil ola bilər, hökuməti devirmək mümkündür, lakin yeni dövlət institutları yaratmaq, hüquqi qaydanı bərpa etmək, cəmiyyətin etimadını qazanmaq və müxtəlif qruplar arasında barışıq əldə etmək daha çətindir. Dövlətin köhnə mexanizmləri bir gündə dağıdılanda onların yerində boşluq qalır. Bu boşluğu isə çox vaxt silahlı qruplar, radikal təşkilatlar və cinayət şəbəkələri doldurur.

Əfqanıstanda baş verənlər də eyni dərsi verdi. ABŞ və müttəfiqləri təxminən iyirmi il bu ölkədə qaldı. Böyük maliyyə vəsaiti xərcləndi, təhlükəsizlik qüvvələri yaradıldı, yeni siyasi institutlar quruldu. Lakin 2021-ci ildə xarici qüvvələrin çıxmasından sonra "Taliban"ın qısa müddətdə yenidən hakimiyyətə gəlməsi göstərdi ki, xaricdən qurulan siyasi sistem cəmiyyətin daxilində möhkəm dayaqlara malik deyilsə, onun davamlılığı zəif olur.

11 sentyabrdan sonra beynəlxalq hüquqda ən çox müzakirə olunan məsələ özünümüdafiə hüququnun sərhədləri idi. BMT Nizamnaməsinin 51-ci maddəsi silahlı hücuma məruz qalan dövlətin fərdi və ya kollektiv özünümüdafiə hüququnu tanıyır. Ancaq bu hüququn terror şəbəkələrinə qarşı necə tətbiq ediləcəyi, başqa dövlətin ərazisində hərbi əməliyyat aparmaq üçün hansı şərtlərin lazım olduğu, "qabaqlayıcı zərbə" anlayışının haradan başlayıb harada bitdiyi barədə ciddi fikir ayrılıqları yarandı.

Təhlükənin qarşısını almaq üçün qabaqlayıcı tədbirlər görmək bir çox halda məntiqli sayıla bilər. Dövlət açıq təhlükə görürsə, əlbəttə, vətəndaşlarını qorumaq üçün hərəkət etməlidir. Lakin ehtimal olunan təhlükə ilə real silahlı hücum arasında fərq var. Əgər hər bir dövlət yalnız öz siyasi qiymətləndirməsinə əsaslanaraq başqa ölkəyə qarşı güc tətbiq edə bilirsə, beynəlxalq hüququn əsas dayaqları zəifləyir. Bu zaman suverenlik, ərazi bütövlüyü və BMT Təhlükəsizlik Şurasının rolu formal anlayışa çevrilə bilər.

Məhz buna görə 11 sentyabr dövrünün ən ağır nəticələrindən biri beynəlxalq hüququn seçici tətbiqi oldu. Bəzi hallarda güc tətbiqinə "təhlükəsizlik" adı verildi, bəzi hallarda isə eyni addımlar beynəlxalq hüququn pozulması kimi qiymətləndirildi. Belə ikili yanaşma dövlətlərin hüquqa inamını azaldır, güclülərin qaydaları öz maraqlarına uyğun yozması haqqında təsəvvürü möhkəmləndirir.

Təhlükəsizlik siyasətinin başqa tərəfi insan hüquqları ilə bağlıdır. 11 sentyabrdan sonra bir çox ölkədə nəzarət mexanizmləri genişləndirildi. Telefon danışıqları, internet fəaliyyəti, bank əməliyyatları və şəxsi məlumatlar üzərində dövlət nəzarəti artdı. Hava limanlarında, sərhədlərdə və miqrasiya prosedurlarında daha sərt qaydalar tətbiq edildi. Bu tədbirlərin bir qismi real təhlükələrin qarşısını almaq üçün vacib idi, lakin onların nə qədərinin zəruri, nə qədərinin isə həddindən artıq olduğu sualı bu gün də cavabını axtarır.

ABŞ-da qəbul edilən "Patriot Act" qanunu təhlükəsizlik orqanlarının səlahiyyətlərini genişləndirdi. Sonradan bəzi kütləvi məlumat toplama proqramları, məhkəmə nəzarətindən kənar fəaliyyət iddiaları və şəxsi həyatın toxunulmazlığı ilə bağlı mübahisələr ictimai narazılıq doğurdu. Avropada da terrorla mübarizə adı altında nəzarət imkanlarının artırılması, dini və etnik mənsubiyyətə görə ayrı-seçkilik riskləri, miqrantlara qarşı sərt münasibət kimi problemlər ortaya çıxdı.

Quantanamo həbsxanası, gizli həbs məntəqələri, işgəncə və qəddar rəftar barədə məlumatlar terrorla mübarizənin mənəvi və hüquqi sərhədlərini ciddi şəkildə sual altına aldı. Terrorçuluq ağır cinayətdir və onun törətdiyi faciələrə göz yummaq olmaz, lakin terrorla mübarizə aparan dövlətin özü hüququ pozarsa, onun mənəvi üstünlüyü zəifləyir. Hüququn məqsədi yalnız günahkarı cəzalandırmaq deyil, həm də cəzanın qanuni, ədalətli və insan ləyaqətinə uyğun olmasını təmin etməkdir.

Terrorizmə qarşı mübarizədə bir başqa yanlış yanaşma bütün təhlükəni hərbi sahədə görmək idi. Terror təşkilatları yalnız silahla yaşamır, onlar sosial narazılıqdan, yoxsulluqdan, savadsızlıqdan, siyasi təcriddən, məzhəb qarşıdurmasından və insanların ədalət arzusundan istifadə edir. Bəzən bir gəncin radikal qruplaşmaya qoşulmasının səbəbi onun ideoloji inancı deyil, işsizlik, ümidsizlik, ailə faciəsi, təhqir olunmaq hissi və ya sosial mühitdən kənarda qalması olur.

Bu səbəbdən terrorizmlə mübarizə yalnız xüsusi əməliyyat, pilotsuz uçuş aparatı və ya hərbi baza məsələsi deyil; təhsil, məşğulluq, yerli idarəetmə, sosial ədalət, dini savadlılıq, gənclərlə iş və informasiya təhlükəsizliyi bu mübarizənin əsas hissəsidir. Dövlət yalnız təhlükəni məhv etməyə yox, onun yenidən yaranmasına səbəb olan şəraiti aradan qaldırmağa çalışmalıdır.

İnternet və sosial şəbəkələr də 11 sentyabrdan sonrakı dövrdə terrorizmin xarakterini dəyişdirdi. Əvvəllər radikal qrupların təbliğat imkanları məhdud idi, indisə onlar müxtəlif platformalar vasitəsilə sərhəd tanımadan ideya yaymaq, insan cəlb etmək, maliyyə toplamaq və psixoloji təsir göstərmək imkanı qazanıb. Bu, dövlətlərdən təkcə hərbi yox, həm də texnoloji, ideoloji və hüquqi cavab tələb edir. Lakin burada da tarazlıq vacibdir. Radikal çağırışlara qarşı mübarizə ifadə azadlığının tam məhdudlaşdırılmasına çevrilməməlidir. Saxta xəbərlərlə, nifrət nitqi və terror təbliğatı ilə mübarizə apararkən jurnalistikanın, elmi müzakirənin və vətəndaş cəmiyyətinin normal fəaliyyəti zərər görməməlidir. Təhlükəsizlik cəmiyyəti qorumaq üçündür, cəmiyyəti susdurmaq üçün deyil.

11 sentyabrın dünyaya miras qoyduğu problemlərdən biri də islamofobiyanın və kollektiv şübhənin artması oldu. Milyonlarla müsəlman terrora heç bir aidiyyəti olmadığı halda bəzi ölkələrdə şübhə və ayrı-seçkiliklə üzləşdi. Terrorun müəyyən dinlə, millətlə və ya xalqla eyniləşdirilməsi həm əxlaqi, həm də siyasi baxımdan yanlışdır. Bu yanaşma terrorçuların məqsədinə xidmət edir, çünki onlar cəmiyyətlər arasında qarşıdurma yaratmaq, insanları bir-birinə qarşı qoymaq istəyirlər.

Müasir dünyada terror təhlükəsi hələ də qalır, amma onun forması dəyişib. Böyük təşkilatlanmış şəbəkələrlə yanaşı təkbaşına hərəkət edən radikallar, kiberhücumlar, maliyyə sistemindən sui-istifadə, pilotsuz vasitələrdən istifadə və süni intellekt imkanlarından yararlanmaq kimi yeni risklər meydana çıxır. Buna görə də 2001-ci ilin üsulları ilə 2026-cı ilin təhlükələrinə cavab vermək mümkün deyil.

Bu gün dövlətlər daha ağıllı və daha hüquqi təhlükəsizlik siyasəti qurmalıdır. Kəşfiyyat məlumatlarının mübadiləsi, terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə, sərhəd təhlükəsizliyi, kibermüdafiə və beynəlxalq hüquqi əməkdaşlıq vacibdir. Amma bunlar hüquqi prosedurlar, parlament və məhkəmə nəzarəti, insan hüquqlarının qorunması və ictimai etimadla birlikdə aparılmalıdır.

11 sentyabrın ən böyük dərsi budur: qorxu siyasətin əsas istiqamətverici qüvvəsinə çevriləndə dövlət bəzən öz dəyərlərini təhlükəyə atır. Təhlükəsizlik vacibdir, çünki insanın yaşamaq hüququ və dövlətin öz vətəndaşlarını qorumaq borcu danılmazdır; ancaq azadlıq, hüquq, insan ləyaqəti və beynəlxalq qaydalar da təhlükəsizliyin ayrılmaz hissəsidir. Əsl təhlükəsizlik yalnız silahlı qüvvələrin gücü ilə ölçülmür, ədalətli institutlar, savadlı cəmiyyət, sosial sabitlik, hüquqa hörmət və dövlətlər arasında etibarlı əməkdaşlıqla yaranır. Dünya 11 sentyabr faciəsini unutmayacaq, lakin həmin faciədən düzgün nəticə çıxarmaq üçün əsas məqsəd təhlükəni sadəcə bir ölkədən digərinə, bir bölgədən başqasına və ya bir nəsildən sonrakına ötürmək olmamalıdır. Əsl qələbə terroru həm silahlı, həm siyasi, həm sosial, həm də ideoloji köklərini zəiflədə bilən, hüquqa əsaslanan uzunmüddətli sülh siyasəti qurmaqdır.



***Kəramət QƏNBƏROV,***
***Beynəlxalq hüquq üzrə ekspert***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**







# Milli Musiqi Günü: Şəhərin hər yerindən gələn milli səs...

**Hər səhər işə gedərkən metroya düşürəm. İnsanların tələsdiyi, bir-birini tanımayan yüzlərlə insanın eyni istiqamətə hərəkət etdiyi bu məkanın özünəməxsus bir səsi var. Amma bəzən o səs-küyün içindən bir musiqi yüksəlir və hər şey bir anlıq dəyişir...**

Metroda səslənən həzin milli musiqi tək mənim yox, mənim kimi minlərlə sərnişinin üréyinə toxunur. Kimisi yol gedə-gedə musiqiyə qulaq asır, kimisi bir anlıq fikrə gedir, kimisi üzündə təbəssümlə yoluna davam edir. Musiqinin sehrli tərəfi də elə budur: insanı bəzən xəyal qurmağa, bəzən sevincə, bəzən şənlənməyə, bəzən də kövrəlməyə vadar edir.

Bəlkə də metro kimi hər gün minlərlə insanın keçdiyi bir məkanda milli musiqinin səslənməsi təsadüfi seçim deyil. Çünki musiqi yalnız qulaqla eşidilən sənət deyil. O, yaddaşdır, hissdir, kimlikdir. Bir melodiyanı eşidərkən bəzən sözə ehtiyac qalmır. Musiqi insanın içində çoxdan mövcud olan, amma ifadə edə bilmədiyi duyğuları oyadır.

Bu gün 18 sentyabr - Milli Musiqi Günüdür. Bu tarix həm də Azərbaycan professional musiqisinin banisi, dahi bəstəkar Üzeyir Hacıbəylinin doğum günüdür. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1995-ci ildən etibarən hər il sentyabrın 18-i ölkəmizdə Milli Musiqi Günü kimi qeyd olunur.

Üzeyir bəyin adı Azərbaycan musiqisinin elə bir mərhələsi ilə bağlıdır ki, onun yaradıcılığından danışarkən təkcə bəstəkardan yox, bütöv bir musiqi məktəbinin formalaşmasından danışırıq.

O, milli musiqi xəzinəmizi yeni janr və formalarla zənginləşdirdi. “Leyli və Məcnun”la Şərqdə ilk operanın əsasını qoydu, “Koroğlu” operası ilə Azərbaycan professional musiqisinin ən möhtəşəm nümunələrindən birini yaratdı. Üzeyir Hacıbəyli həm də Azərbaycan Xalq Cümhuriyyətinin dövlət himninin musiqisinin müəllifidir. Müstəqilliyimizin bərpasından sonra həmin himn Azərbaycan Respublikasının Dövlət Himni kimi yenidən qəbul edildi.

Onun fəaliyyəti yalnız bəstəkarlıqla məhdudlaşmırdı. Musiqişünas, publisist, dramaturq, pedaqoq kimi Azərbaycan mədəniyyətinin müxtəlif sahələrində iz qoyan Üzeyir Hacıbəyli milli musiqi təhsilinin və bəstəkarlıq məktəbinin inkişafında böyük rol oynadı. 2025-ci ildə imzalanmış sərəncamda da onun Şərqdə ilk operanın yaradıcısı, musiqişünas-alim, publisist, dramaturq və pedaqoq kimi çoxşaxəli fəaliyyəti xüsusi qeyd olunur.

Bəlkə də Üzeyir bəyin yaradıcılığının ən mühüm xüsusiyyətlərindən biri milli olanı müasir və universal dillə ifadə edə bilməsi idi. O, Şərq və Qərb musiqi ənənələrini bir araya gətirərək Azərbaycan musiqisinin dünyaya açılan qapılarından birini yaratdı.

Bu gün onun musiqisinin metroda, parklarda, meydanlarda səslənməsi də həmin irsin gündəlik həyatımıza toxunan tərəfidir.

Çünki mədəniyyət yalnız muzeylərdə, kitabxanalarda, konsert salonlarında yaşamamalıdır. Bəzən onu küçədə, parkda, metroda eşitməliyik. İnsan işə gedərkən, dostuna görüşə tələsərkən, yaxud sadəcə şəhərin bir başından digər başına gedərkən milli musiqi ilə qarşılaşmalıdır. Bu, xüsusilə şəhərimizə gələn turistlər üçün də maraqlı bir təcrübədir. Onlar Bakının tarixi binalarını, İçərişəhərini, Xəzər sahilini görməklə yanaşı, Azərbaycanın səsini də eşidə bilərlər.

Biz bəzən ölkəmizi turistlərə yalnız “nə görmək olar?” sualı üzərindən təqdim edirik. Halbuki “nə eşitmək olar?” sualı da ən azı onun qədər maraqlıdır.

Azərbaycanı görmək mümkündür - tarixi abidələrimiz, qədim şəhərlərimiz, muzeylərimiz, təbiətimiz bunun üçündür. Amma Azərbaycanı eşitmək də mümkündür. Tarın səsində, kamançanın nisgilində, muğamın dərinliyində, Üzeyir bəyin yaratdığı musiqilərdə...

Və bəlkə də şəhərin ən gözəl tərəfi budur: səhər tələsik addımlarla metroya daxil olan insan axınının içində bir musiqi səslənir və bir neçə dəqiqəlik hamımız eyni hissin içində birləşirik.

Musiqinin sərhədi yoxdur. O, yaşından, peşəsindən, dünyagörüşündən asılı olmayaraq hər kəsə toxuna bilir.

Bu gün Üzeyir Hacıbəylinin xatirəsini yad edərkən onun əsərlərinə yalnız keçmişin yadigarı kimi baxmayaq. Onun yaratdığı musiqini yaşadaq, dinləyək, gələcək nəsillərə ötürək.

Çünki milli musiqi sadəcə keçmişimizin səsi deyil.

O, bu günümüzün də səsidir.

***Havar Şəfiyeva***

## Şəhriyarın anım günüdür

# Onun ən böyük şeiri Azərbaycan idi...



Bəzi insanlar dünyadan köçür, sözləri yaşayır. İllər keçir, nəsillər dəyişir, onların yazdıqları yenə oxunur, yenə sevilir. Məhəmmədhüseyn Şəhriyar da belə şairlərdəndir.

Bu gün onun anım günüdür. Şəhriyarı xatırlayanda ilk ağıla gələn yalnız şeirləri deyil, həm də onun böyük sevgisi, həsrəti, doğma torpağa bağlılığı və sözə olan sevgisidir.

Şəhriyarın ədəbiyyata marağı hələ uşaqlıq illərindən başlayıb. O, 7 yaşından Azərbaycan dilində, 9 yaşından isə farsca şeirlər yazmağa başlayıb. Hafizin, Məhəmməd Füzulinin qəzəllərini oxuyub, onların yaradıcılığından bəhrələnib. Sözə olan sevgisi onun üçün sadəcə yaradıcılıq deyil, həyatının bir hissəsi olub.

Şəhriyarın həyatında elə bir sevgi var idi ki, bu sevgi onun yaradıcılığında da dərin iz buraxdı. Tələbəlik illərində Süreyya adlı bir qıza aşiq olan şair ona şeirlər həsr edir. Deyilənlərə görə, Süreyyanı şahın qohumlarından biri də sevirmiş. Bundan sonra Şəhriyara təzyiqlər başlayır və universitetin son kursunda o, Nişapura sürgün edilir.

Şairin Süreyyaya olan sevgisindən doğan şeirlər arasında “Yar qasidi” xüsusi yer tutur. Sonralar Şəhriyar bu şeiri məclislərdə göz yaşları içində səsləndirirmiş.

Onun sevgisini ifadə edən məşhur sözlərindən biri belədir:

“Süreyyanın eşqi olmasaydı, mən şair yox, həkim olardım...”

Bəlkə də bu cümlə Şəhriyarın həyatını ən sadə şəkildə izah edir. Bəzən bir insan, bir hadisə, bir ayrılıq insanın bütün taleyini dəyişir.

Şəhriyarın yaradıcılığının zirvələrindən biri isə “Heydərbabaya salam” əsəridir. Şair bu əsəri 1951-ci ildə yazıb. Doğma torpağın, uşaqlığın, kənd həyatının, insanların və xatirələrin poetik ifadəsi olan bu əsər böyük şöhrət qazanıb və müxtəlif dillərə tərcümə olunub.

Şəhriyar Azərbaycandan uzaqda yaşasa da, Azərbaycanla əlaqəsini heç vaxt kəsməyib. Azərbaycanlı şair və yazıçılarla məktublaşır, onların yaradıcılığını izləyirdi. O, Molla Pənah Vaqifin 250 illik yubileyinə gəlməyi də çox istəyirdi.

Hətta Bakıya gəlməsi üçün Yazıçılar Birliyi tərəfindən dəvət də göndərilir. Lakin deyilənlərə görə, dəvətnamə Şəhriyara deyil, başqa birinə çatır. Beləliklə, şairin Azərbaycana gəlmək arzusu da gerçəkləşmir. Həmkarı Məmməd Araz onun gələ bilməməsinə görə “Gəlmədi” adlı şeir yazır.

Şairin həyatı boyu yaşadığı həsrət onun yaradıcılığında daha böyük bir sevgiyə çevrilir. Onun poeziyasında da bu hissi görmək mümkündür. Onun üçün Azərbaycan yalnız bir coğrafiya deyildi. Azərbaycan onun uşaqlığı, xatirələri, dili, insanları və içində yaşatdığı böyük bir sevgi idi.



Şair ömrünün son günlərini Tehranın Mehr xəstəxanasında keçirir. 1988-ci il sentyabrın 18-də ağciyər iltihabı və ürək çatışmazlığından dünyasını dəyişir. Öz vəsiyyətinə əsasən Təbrizdə, Surxab qəbiristanlığındakı “Məqbərətüş-şüəra”da - “Şairlər məqbərəsi”ndə dəfn olunur.

Şəhriyarın həyatı bir daha göstərir ki, şair olmaq yalnız şeir yazmaq deyil. Yaşadığı sevgi, ayrılıq, həsrət və doğma yurda bağlılıq sözə çevrilir. O söz isə illər sonra belə insanın ürəyinə toxunur.

Şəhriyar da öz sözləri ilə yaşamağa davam edən şairlərdəndir. Onu oxuduqca sanki bir insanın ömrünü deyil, bir xalqın duyğularını dinləyirik.

Və bəlkə də Şəhriyarı unutmamağın ən gözəl yolu onun sözlərini yaşatmaqdır.

***Havar Şəfiyeva***


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4446
Sifariş: 1215
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova